# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 iyul 2026-cı il, çərşənbə
№ 117 (7184)
Qiymətі 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## Azərbaycan-ABŞ münasibətləri region üçün çox önəmlidir



Bax səh. 2

## Dövlət suverenliyimiz tam bərpa edildikdən sonra ilk dəfə...

### 2029-cu ildə əhalinin növbəti siyahıyaalınması keçiriləcək

Bax səh. 2

## Dövlət quruculuğunda yeni dövr

Bax səh. 2

## Türk dövlətlərinin iqtisadi gücü artır

Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyinin 8 dildə təqdim etdiyi “Türk iqtisadi icmalı”nın 2026-ci ilin birinci rübünü əhatə edən buraxılışı nəşr olunub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyi ilə birgə 8 dildə təqdim etdiyi icmalda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın, həmçinin müşahidəçi üzvlər olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının (ŞKTR) iqtisadi göstəricilərinin təhlili təqdim edilir. Nəşrdə TDT-yə üzv ölkələrdə makroiqtisadi göstəricilərin dinamikası, xarici ticarət, fiskal inkişafları və struktur transformasiya meyillərinə dair əhatəli qiymətləndirmə əks olunub. Eləcə də, TDT üzvlərinin potensialı və qlobal iqtisadiyyata təsiri qiymətləndirilib.

Türk dövlətləri 673 milyard 557,5 milyon dollar ÜDM ilə qlobal iqtisadiyyatda 2,34 faizlik paya sahib olub, əhalisi isə 178,8 milyon nəfər ilə qlobal əhalinin 2,8 faizini təşkil edib. Bu göstəricilər Türk dövlətlərinin...

Bax səh. 3



Bax səh. 4

## Aİ Azərbaycanın regional liderliyini qəbul edir

## Azərbaycan susmur və qəti etirazını bildirir

Ukraynanın Nikolayev vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsinin dron hücumuna məruz qalması ilə əlaqədar Rusiya tərəfinə müvafiq nota təqdim edilib

Çoxvektorlu müstəqil xarici siyasət kursuna malik olan Azərbaycan digər dövlətlərlə münasibətlərini paritet əsaslarla qurur və hər zaman beynəlxalq hüquq normalarından çıxış edir. Ölkəmizin belə yanaşması həm coğrafi və əhali baxımından böyük, həm də kiçik dövlətlərə aiddir. Təəssüf ki, biz qonşu Rusiyadan respublikamıza qarşı eyni yanaşmanı izləmirirk.

Son illərdə Azərbaycan-Rusiya münasibətlərində məhz qarşı tərəfin məsuliyyətsizliyi səbəbindən müəyyən ziddiyyətli proseslərin şahidi oluruq. Elə bu günlərdə Rusiya Ukrayna ərazisində Azərbaycana qarşı növbəti müharibə cinayətinə əl atıb. Belə ki, iyunun 5-də axşam saatlarında Ukraynanın Nikolayev vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsi Rusiya silahlı qüvvələrinin dron hücumuna məruz qalıb. Dron hücumu zamanı yanacaqdoldurma məntəqəsində partlayış baş verib...

Bax səh. 4

## BMT “ASAN xidmət”in dünyada təşviqinə böyük maraq göstərir

Bir neçə gün bundan əvvəl Azərbaycanın “ASAN xidmət” modeli BMT-nin “Dövlət institutlarının transformasiyası: İnnovasiyanın, iştirakın və inklüzivliyin inkişafı” mövzusunda Tbilisidə baş tutan Dövlət Xidməti Forumunda geniş təqdim olunub. BMT-nin Dövlət Xidməti Forumu dövlət xidmətləri sahəsində...

Bax səh. 6

## Ermənistanda yeni siyasi gərginlik

İyunun 7-də baş tutan parlament seçkisindən sonra Ermənistandakı siyasi gərginlik müəyyən mənada azalsa da, ölkənin Konstitusiya Məhkəməsinin seçkinin nəticələri ilə bağlı qərarının ardından vəziyyət yenidən dəyişib. Hakimiyyətin revanşist müxalifətin fəaliyyətinin araşdırılması ilə bağlı mövqeyi nəticə etibarı ilə Ermənistanda siyasi qarşıdurma yaratmaq istəyən qüvvələrin narahatlığına səbəb olub...

Bax səh. 6

## Hər köç yeni bir başlanğıcdır!

Bir zamanlar həsrətin, ayrılığın və məcburi köçkünlük ağrısının simvoluna çevrilən işğaldan azad edilmiş ərazilərimizin yolları artıq sevinc, qürur və doğma torpaqlara qayıdışın ünvanına çevrilib. Demək olar ki, hər gün yola salınan köç karvanları illərlə öz doğma yurduna dönəcəyi günü səbrlə gözləyən ailələrin həyatında yeni bir səhifə açır, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyatın yenidən...

Bax səh. 7

## Sülh danışıqlarının 6-cı mərhələsi...

Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi və dəstəyi nəticəsində iyulun 26-da Livan və İsrail hökumətləri arasında çərçivə sazişinin imzalanması tərəflər arasında gərginliyi azaltmayıb. Belə ki, İsrail hələ də Livanda bəzi hərbi hədəflərə hücumlarını davam etdirir.

İsrail və Livan arasında razılaşmaya dair çərçivə sazişi İsrail qoşunlarının respublika ərazisindən tədricən çıxarılmasını...

Bax səh. 7

## Ankara Zirvəsi başladı...



Bax səh. 5

# Azərbaycan-ABŞ münasibətləri region üçün çox önəmlidir

## Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib





Prezident İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib. Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ Prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bunun ölkələrimiz, eyni zamanda, region üçün çox önəmli olduğunu bildirib.

Dövlətimizin başçısı ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfərini məmnunluqla xatırladıb, həmin səfər zamanı “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətinə toxunub, Donald Trampla şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyərək, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında onun xüsusi rol oynadığını vurğulayıb.

Stiv Deynsin ölkəmizə son səfərindən sonra tarixi hadisələrin baş verdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan-ABŞ əlaqələrinin inkişafı istiqamətində göstərdiyi səylərə görə qonağa təşəkkürünü bildirib.

Senator Stiv Deyns də öz növbəsində son dövrlərdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini xatırladaraq Azərbaycan Prezidentinin ötən ilin avqustunda Vaşinqtona səfərinin əlamətdar hadisə olduğunu vurğulayıb. Qonaq, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi səviyyədə mühüm rolunu qeyd edib.

Stiv Deyns Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə əlaqədar nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Söhbət zamanı TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından əhəmiyyəti vurğulandı, Azərbaycanla ABŞ Senatı arasında dialoqun möhkəmləndirilməsi və tərəfdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Dövlət suverenliyimiz tam bərpa edildikdən sonra ilk dəfə...

## 2029-cu ildə əhalinin növbəti siyahıyaalınması keçiriləcək

Prezident İlham Əliyev “2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” Fərman imzalayıb. Sənədə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edildikdən sonra ilk dəfə ölkəmizin bütün ərazisi üzrə əhaliyə dair müfəssəl məlumatların əldə edilməsi və sosial-demoqrafik vəziyyətin qiymətləndirilməsi məqsədilə 2029-cu il oktyabrın 1-nə olan vəziyyət üzrə əhalinin növbəti siyahıyaalınması həmin ilin oktyabrın 1-dən 31-dək keçiriləcək. Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə edilib.

Nazirlər Kabinetinə 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planını iki ay müddətində təsdiq etmək, əhalinin siyahıyaalınması ilə bağlı zəruri məlumatların inzibati mənbələrdən əldə edilməsi üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarında və sistemlərində olan müvafiq məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyasının təmin edilməsi ilə bağlı tədbirlər görmək barədə tapşırıq verilib.

# Prezident büdcə qanununu təsdiqlədi

Dövlət başçısı “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb. Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun 2.2-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində istifadə olunan vəsaitin inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşdirilən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə icrasının məbləği aşağıdakı qaydada təsdiq olunub.

Sənədə əsasən, ötən il büdcənin gəlirləri 39 milyard 184,6 milyon manat təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 5,4 faiz, proqnozdan isə 2,2 faiz çoxdur. Büdcənin xərcləri isə 38 milyard 604,6 milyon manat olub ki, bu da illik müqayisədə 2,4 faiz çox, proqnozdan isə 6,8 faiz azdır. İl ərzində büdcənin profisiti 580 milyon manat və yaxud ÜDM-in 0,45 faizini təşkil edib. Profisitin yaranmasına səbəb büdcəyə daxilolmalar üzrə proqnozun artıqlaması ilə təmin edilməsi, eləcə də büdcə təşkilatlarının öz xərclərini proqnozdan 2 milyard 803 milyon manat az icra etməsi ilə bağlı olub.



# Dövlət quruculuğunda yeni dövr

## Rəqəmsal İnkişaf Şurası innovasiya əsaslı iqtisadi modelə keçidi təmin edəcək

Azərbaycan hökuməti rəqəmsal iqtisadiyyat quruculuğu istiqamətində ən son innovasiyaların tətbiq edəcək. Rəqəmsal İqtisadiyyat Strategiyası və 3 illik Fəaliyyət Planı ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi üçün yeni hüquqi-iqtisadi arxitektura deməkdir. Sənəd rəqəmsal texnologiyaların müasir iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrildiyi və qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə olduqca vacib hədəf konsepti kimi qiymətləndirilə bilər.

Prioritetlərə əsasən, rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şuranın sədri Birinci vitse-prezident, üzvləri isə dövlət qurumlarının yüksək vəzifəli nümayəndələri təyin edilib.

Rəqəmsal İnkişaf Şurasının fəaliyyətinin təşkili məqsədilə Katibliyin yaradılması da nəzərdə tutulur. Eyni zamanda, nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları, elmi müəssisə və təşkilatları cəlb edə, habelə aidiyyəti dövlət orqanlarından və digər maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yarada bilər.

Şuranın əsas məqsədi rəqəmsal inkişaf sahəsi üzrə dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və dövlət orqanları arasında siyasətin əlaqələndirilməsini təmin etməkdən ibarət olacaq. Həmçinin, dövlət qurumları tərəfindən icra olunan layihələrin bu sahədə mövcud strateji məqsədlərə uyğunluğunun təmin edilməsinə nəzarət həyata keçiriləcək.

**Rəqəmsal infrastruktur qurulub, stimullaşdırıcı addımlar atılıb**

Məlumdur ki, son illərdə ölkəmizdə innovasiya infrastrukturunun yaradılması, texnoparkların inkişafı, innovativ layihələr üçün maliyyə mexanizmlərinin əlçatanlığının artırılması, İKT sahəsində insan kapitalının yetişdirilməsi sahələrində elektron intibaha keçid sahəsində iradəli addımlar atılır, möhkəm rəqəmsal infrastruktur qurulmaqdadır. Respublikamızda genişzolaqlı internetin inkişaf etdirilməsi və ölkənin ən ucqar yaşayış nöqtələrində yaşayan əhalinin yüksəksürətli internetə çıxışının təmin olunması məqsədilə təsdiq edilmiş “Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” çərçivəsində müəyyən edilmiş hədəflərə nail olunub. Son 4 il ərzində ölkədə orta internet sürəti 7 dəfə artaraq 12.81 Mbit/saniyədən 90 Mbit/saniyəyədək yüksəlib. “Onlayn Azərbaycan” layihəsinin icrası sayəsində müasir IMS platforması ilə işləyən GPON avadanlığı və optik infrastruktur qurulub. Ölkə ərazisinin fiber-optik şəbəkə ilə geniş əhatə olunması tam başa çatdırılıb. Yüksək standartlara cavab verən “Hökumət buludu” istifadəyə verilib və son 4 il ərzində data mərkəzinə keçid edən qurumların sayı 3 dəfə artaraq 148-ə çatıb. Hazırda mövcud data mərkəzlərindən gücü 3 dəfə artıq olan yeni data mərkəzlərinin inşası davam etdirilir. Biometrik rəqəmsal imzanın (SİMA) uğurlu tətbiqi isə onlayn identifikasiyanı sadələşdirərək, dövlət və özəl sektor xidmətlərin məsafədən göstərilməsini təmin edib. Habelə “Mygov” platforması yenidən qurularaq 2.5 milyondan artıq vətəndaşa xidmət göstərir. Hazırda sənədlərin fiziki təqdim edilməsinə ehtiyac aradan qaldırılaraq 2.3 milyondan artıq rəqəmsal sənəd “Mygov” platforması vasitəsilə təqdim edilməkdədir.

Yeni qurulan “Mygov Biznes” platforması isə biznes subyektləri tərəfindən bütün xidmətlərin “bir pəncərə” prinsipi əsasında əldə olunmasına və tam rəqəmsal formada istifadəyə şərait yaradacaq.

Ölkəmizin innovasiya ekosisteminin inkişafı ilə bağlı da güclü infrastruktur qurulub, biznes üçün bir sıra güzəştlər edilib. Vergi və Miqrasiya məcəllələrində, “Gömrük tarifi haqqında” və “Sosial sığorta haqqında” qanunlarında edilmiş dəyişikliklərə əsasən, texnologiyalar parkının rezidentləri vergi, gömrük və sosial güzəştlərlə əhatə olunublar.

**Rəqəmsal biznes arxitekturası**

Rəqəmsal inkişafın əsas yeniliklərindən biri dövlət xidmətlərinin təqdim edilməsində pərakəndəliyin aradan qaldırılması və vahid mərkəzləşdirilmiş sistemə keçiddir. Bu sxemə əsasən, bütün rəqəmsal dövlət xidmətləri, o cümlədən sənədlər yalnız “mygov” və “mygov Biznes” platformaları vasitəsilə vətəndaşlara və sahibkarlara təqdim olunması, ayrı-ayrı qurumların fərdi portal və mobil tətbiqlərinin vahid ekosistemdə birləşdirilməsi sayəsində bu ardıcıl işlər aparılır. Rəqəmsal mühitdə biznes-dövlət münasibətlərinin optimallaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Dövlət, biznes və cəmiyyətin birgə fəaliyyəti iqtisadi həmrəyliyi təmin etməklə, rəqəmsal iqtisadiyyat quruculuğuna güclü təkan verir. Bu cəhətdən rəqəmsal transformasiyada özəl sektorun liderliyinin gücləndirilməsi, ailə-biznes modellərinin və fərdi sənaye istedadlarının, xüsusilə də startap və süni zəka sahəsində fəaliyyətinin stimullaşdırılması üçün çevik platformalar qurulmaqdadır.




**Hədəf: rəqəmsal məhsul və xidmətlərin illik ixracının yüksəldilməsi**

Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına təmin ediləcək. Bu, o deməkdir ki, dövlət büdcəsindən investisiyalarla yanaşı, özəl sektorun, xarici investorların və maliyyə institutlarının vəsaitlərinin cəlb edilməsi nəzərdə tutulur.

Fəaliyyət Planı üzrə nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti yeni yaradılan Rəqəmsal İnkişaf Şurası həyata keçirəcək.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və səhmləri dövlətə məxsus olan hüquqi şəxslər, habelə dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları, eləcə də Ali Məhkəmə, Baş Prokurorluq, Mərkəzi Bank, İnsan hüquqları üzrə Müvəkkil, Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam icrasını təmin etməli olacaq.

Fəaliyyət Planının uğurlu icrası nəticəsində Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması hədəflənir. Növbəti 10 ildə İKT sektorunun qeyri-neft-qaz ÜDM-də payının, rəqəmsal məhsul və xidmətlərin illik ixracının yüksəldilməsi, proaktiv xidmətlərin payının 50 faizə çatdırılması və ölkənin innovasiya əsaslı, rəqabətqabiliyyətli iqtisadiyyata keçidinin sürətləndirilməsi təmin ediləcək.

*E.CƏFƏRLİ*

# Türk dövlətlərinin iqtisadi gücü artır

## TDT üzvü olan ölkələrin ticarət dövriyyəsi 326 milyard dolları ötüb



Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyinin 8 dildə təqdim etdiyi “Türk iqtisadi icmalı”nın 2026-cı ilin birinci rübünü əhatə edən buraxılışı nəşr olunub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyi ilə birgə 8 dildə təqdim etdiyi icmalda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın, həmçinin müşahidəçi üzvlər olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının (ŞKTR) iqtisadi göstəricilərinin təhlili təqdim edilir. Nəşrdə TDT-yə üzv ölkələrdə makroiqtisadi göstəricilərin dinamikası, xarici ticarət, fiskal inkişafları və struktur transformasiya meyillərinə dair əhatəli qiymətləndirmə əks olunub. Eləcə də, TDT üzvlərinin potensialı və qlobal iqtisadiyyata təsiri qiymətləndirilib.

**673 milyard 557,5 milyon dollar ÜDM**

Türk dövlətləri 673 milyard 557,5 milyon dollar ÜDM ilə qlobal iqtisadiyyatda 2,34 faizlik paya sahib olub, əhalisi isə 178,8 milyon nəfər ilə qlobal əhalinin 2,8 faizini təşkil edib. Bu göstəricilər Türk dövlətlərinin həm iqtisadi, həm də demoqrafik baxımdan mühüm yer tutduğuna dəlalət edir.

Qırğızıstan, Özbəkistan və Türkmənistan müvafiq olaraq 10,1 faiz, 8,7 faiz, 8,5 faiz artım tempini nümayiş etdirərək sənaye və kənd təsərrüfatı sektorunda davamlı inkişafı təmin edib. ŞKTR-də iqtisadi artım 6,3 faiz, Qazaxıstanda 3 faiz olub. Türkiyə isə təşkilatın ən böyük iqtisadiyyatına sahib olmaqla 2,5 faiz iqtisadi böyüməyə nail olub. Macarıstanda ÜDM-in artım tempi 1,7 faiz, Azərbaycanda 0,3 faiz təşkil edib.




Ticarət dövriyyəsi həm qlobal inteqrasiya, həm də TDT ölkələri arasında iqtisadi inteqrasiya üçün əhəmiyyət daşıyır. İlin ilk rübündə türk dövlətlərinin ümumi ticarət dövriyyəsi 326 milyard 11,55 milyon dollar təşkil edib ki, bu da 8,75 trilyon dollar həcmində olan qlobal ticarət dövriyyəsinin təxminən 3,73 faizinə bərabərdir.

**Türkiyə ticarət dövriyyəsində liderdir**

Türkiyə ən yüksək ticarət dövriyyəsinə malik olmaqla, 155 milyard 122 milyon dollar ilə liderlik edir. Macarıstan, Qazaxıstan və Özbəkistan isə müvafiq olaraq 87 milyard 445 milyon dollar, 32 milyard 908 milyon dollar və 18 milyard 23 milyon dollar ilə ticarət həyata keçirib. Özbəkistan və Qırğızıstanda kənd təsərrüfatı və sənaye sektorlarında davamlı ixrac artımı müşahidə edilib. Bu göstəricilər bölgədəki ticarət dinamikalarının fərqliliyini və türk dövlətlərinin güclü ixrac performansından faydalandığını göstərir.

Sənaye sektorunda Qırğızıstan, ŞKTR və Özbəkistan müvafiq olaraq 14 faiz, 9,2 faiz və 8 faiz artımla liderlik edib. Bununla yanaşı, Türkmənistanda sənaye sektoru 2,4 faiz inkişaf edib. Bu artıma genişmiqyaslı istehsal və infrastruktur layihələri təsir göstərib. Türkiyədə sənaye sektoru 1,1 faiz artıb. Digər tərəfdən, kənd təsərrüfatı sektorunda ŞKTR 7,9 faiz ilə ən güclü artım nümayiş etdirib. Özbəkistan kənd təsərrüfatında 5,1 faiz, Qazaxıstan 3,4 faiz, Qırğızıstan 2,8 faiz, Türkiyə müvafiq olaraq 2,7 faiz artım əldə edib.

**Türk İnvestisiya Fondu regional maliyyə institutuna çevrilir**

Türk dövlətlərinin ortaq maliyyə strukturu olan Türk İnvestisiya Fondu türk ölkələrinin iqtisadiyyatında aktiv səhmdar kimi çıxış edir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan tərəfindən təsis edilmiş fond türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Üzv ölkələrin üzvlük haqqı, investisiya ayırmaları, əsas kapital və əlavə maliyyə alətlərindən formalaşan Fondun nizamnamə kapitalı ilkin mərhələdə  500 milyon dollar müəyyən edilib, kapital fondu hər biri nominal dəyəri 50 min dollara bərabər 10 min paya bölünüb ki, burada hər üzv ölkənin limitə uyğun payı vardır. Bundan başqa, Fondun nizamnamə kapitalı ödənilmiş paylara və yenidən çağırıla bilən, yəni cəlb edilən paylara bölünüb ki, ümumi nominal dəyər 350 milyon dollar təşkil edir. Əlavə maliyyələşmədə ölkələr üzrə ümumi nominal dəyər isə 150 milyon dollardır. Gələcəkdə, Fondun maliyyə portfelinin daha da artırılaraq 1 milyard dolları ötəcəyi istisna olunmur.

**Azərbaycan sabit kapital investisiyalarında artım nümayiş etdirir**

İnvestisiyalar, xüsusilə sabit kapital sahəsindəki investisiyalar uzunmüddətli artım üçün çox vacibdir. Birinci rübdə Özbəkistan və Qırğızıstan sabit kapital investisiyalarında müvafiq olaraq 29,6 faiz və 25,5 faiz artım nümayiş etdirib, bu da infrastruktur, enerji və istehsal sahələrinə edilən böyük investisiyalarla dəstəklənib. Azərbaycan və Macarıstan da müvafiq olaraq 14,9 faiz və 12,2 faiz sabit kapital investisiyalarında sağlam artım göstərərək xarici birbaşa investisiyaların artırıb və işgüzar mühitlərində müsbət inkişaf əldə ediblər.

Türk dövlətlərində bank sektoru da əhəmiyyətli artım nümayiş etdirib. Hesabat dövründə Qırğızıstanın bank sektorunun cəmi aktivlərində 23 faiz, Özbəkistanda 19,6 faiz, Qazaxıstanda 11 faiz, Türkiyədə 7,4 faiz, Macarıstanda 6,8 faiz və Azərbaycanda 5,7 faiz artım olub. Bu göstəricilər iqtisadi inkişafı və investisiyaları dəstəkləyən maliyyə xidmətlərinin gücləndirilməsinə əsaslanır. ŞKTR-in bank sektoru isə daha mülayim (5,04 faiz) artım göstərib.

Dövlət büdcəsinin performansı iqtisadi sağlamlığın digər vacib göstəricisidir. Qırğızıstanda dövlət büdcəsi gəlirlərində 48,8 faiz, dövlət büdcəsi xərclərində isə 42,3 faiz olmaqla ən yüksək artım qeydə alınıb. Türkiyə də dövlət büdcəsi gəlirlərində 44,4 faiz, dövlət büdcəsi xərclərində isə 45,5 faiz olmaqla yüksək artım qeydə alınıb. Özbəkistanda isə dövlət büdcəsi gəlirlərində 35 faiz, dövlət büdcəsi xərclərində isə 24,1 faiz olmaqla yüksək artımı qeydə alınıb. ŞKTR, Qazaxıstan, Macarıstan həm gəlirlər, həm də xərclər sahəsində sabit artım göstərərək effektiv maliyyə idarəetməsi nümayiş etdirib.

Ümumilikdə, 2026-cı ilin ilk rübünün məlumatları göstərir ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr qlobal orta göstəricilərdən daha sürətlə böyüyür, iqtisadi ölçülərinə nisbətən daha intensiv ticarət aparır və investisiya, əlaqəlilik və struktur transformasiyaya daha çox resurs yönəldirlər. Şaxələndirmə, regional inteqrasiya və infrastrukturun inkişafı istiqamətində irəliləyişlərin sonrakı dövrlərdə iqtisadi artım tempini dəstəkləməsi gözlənilir.

***ELBRUS***

# Birinci yarımildə...

## Dövlət büdcəsinin gəlirləri artıb, xərclər təmin edilib

2026-cı ilin yanvar-iyun aylarında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Büdcənin gəlirləri 19 milyard 179,4 milyon manat təşkil edib ki, bu da proqnozu 350,5 milyon manat və ya 1,9 faiz üstələyib. Dövlət büdcəsinin xərcləri isə 17 milyard 230,6 milyon manat proqnoza qarşı 16 milyard 775,5 milyon manat məbləğində icra edilib ki, bu da 97,4 faiz təşkil edir. Bu dövrdə əsas dövlət vəzifələrinin yerinə yetirilməsi üçün maliyyələşmələr, o cümlədən əməkhaqları, müavinətlər, pensiyalar, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, dövlət proqramları və məqsədli tədbirlərin, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin maliyyələşdirilməsi büdcə və büdcədən maliyyə yardımı və ya digər qaydada vəsait alan təşkilatların dövlət xəzinədarlıq orqanlarına təqdim etdikləri xərc sifarişləri əsasında tam və vaxtında təmin edilib.










Ümumilikdə, xəzinədarlıq orqanları tərəfindən 624 mindən çox ödəniş tapşırığı vaxtında və tam şəkildə icra edilib.

2026-cı ilin yanvar-iyun ayları ərzində icmal büdcənin gəlirləri 24 milyard 414,1 milyon manat, xərcləri isə 19 milyard 824,4 milyon manat məbləğində icra edilib.

Qeyd edək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində təsdiq edilib. İcmal büdcənin gəlirləri isə 44 milyard 969,4 milyon manat, xərcləri 48 milyard 839,3 milyon manat müəyyən olunub. Büdcə zərfində müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə xərcləri üçün 8,7 milyard manat həcmində nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3,5 milyard manat vəsaitin ayrılması planlaşdırılıb. Əhalinin sosial rifahı üçün büdcədən 2026-cı ildə 17,1 milyard xərclənməsi təsdiqlənib.

**Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 7 milyard manatı ötüb**

Dövlət büdcəsinin gəlirlərində əsas fiskal mənbə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti olub. Bu qurumun xətti ilə daxilolmalar yanvar-iyun ayları ərzində 8 milyard 842,7 milyon manat təşkil edib. Bu, proqnoza nisbətən 217,7 milyon manat çoxdur. 2025-ci ilin müvafiq dövrünə nisbətən vergi daxilolmaları 139 milyon manat və ya 1,6 faiz çox təşkil edib.

Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 7 milyard 67,4 milyon manat təşkil edib və büdcəyə proqnozdan əlavə 199,4 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 645,8 milyon manat və ya 10,1 faiz artıb.

2026-cı ilin yanvar-iyun aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3 milyard 422,7 milyon manat olub, proqnozdan əlavə 189,9 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2 milyard 244,9 milyon manatdan çox olub. Həmin dövrdə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 122,1 milyon manat olub, proqnozdan əlavə 6 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 92,5 milyon manatı ötüb.

İcbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 517,1 milyon manatdan çox olub, proqnozdan əlavə 13 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 337,4 milyon manatı ötüb.

Vergi daxilolmalarının artımında biznesin və sahibkarlıq subyektlərinin sayının artımı da mühüm rol oynayıb. Qeyd edilən dövrdə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 3,2 faiz artaraq 887.129, aktiv ƏDV ödəyicilərinin sayı isə 5,1 faiz artaraq 61.368 təşkil edib. Həmin tarixə aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 4 faiz artıb və 242.208 olub.

**Fiziki və hüquqi şəxslərə 154 milyon manat vəsait geri qaytarılıb**

Yeri gəlmişkən, 6 ayda dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 154 milyon 659,6 min manat məbləğində vəsait geri qaytarılıb. Geri qaytarılan vəsaitlər fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində aldıqları mallara, mədəniyyət (teatr, kino, muzey, konsert), tibbi xidmətlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir. Bununla yanaşı, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsi, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları da geri qaytarılıb.

***E.CƏFƏRLİ***

# Aİ Azərbaycanın regional liderliyini qəbul edir

Azərbaycan Avropa İttifaqı (Aİ) ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verir. Bu mövqe imzalanan sənədlərdə, diplomatik müzakirələrdə və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb. Ölkəmiz öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir. Bu gün Azərbaycanla qarşılıqlı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə malik olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən önəmli dividendlər vəd edir.



**Ardıcıl səfərlər, verilən mesajlar...**

Nəzərə alaq ki, Azərbaycan Avropa İttifaqının bir sıra üzv ölkələri ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bütövlükdə regionumuzda yeni vəziyyət yaranıb. Bu baxımdan yeni mərhələdə Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətləri bütövlükdə regionumuz üçün önəmlidir. Eyni zamanda, Azərbaycanla Avropa İttifaqı arasında siyasi dialoqun intensivliyi xüsusilə diqqətəlayiqdir. Cəmi bir neçə ay ərzində Aİ-nin üç əsas qurumunun rəhbər şəxsləri ardıcıl olaraq Bakıya səfər ediblər. Diplomatik praktikada belə ardıcıl səfərlərə nadir hallarda təsadüf olunur. Bu, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin fəal şəkildə inkişaf etdiyini və Brüsselin Bakını Cənubi Qafqazdakı uzunmüddətli strategiyasında əsas tərəfdaş kimi gördüyünü göstərir.

Bu baxımdan, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin iyulun 1-də reallaşan səfəri də xüsusi vurğulanmalıdır. Bu, Avropa İttifaqının Azərbaycana sadəcə enerji ixracatçısı kimi deyil, həm də Avropa ilə Mərkəzi Asiya arasında uzunmüddətli strategiyasının həyata keçirilməsində əsas tərəfdaş kimi baxmağa başladığını göstərir. Bu yaxınlara qədər Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoqu demək olar ki, tamamilə təbii qaz ətrafında qurulmuşdu. Hazırda isə vəziyyət dəyişir. Avropa Komissiyası bərpaolunan mənbələrdən istehsal olunan elektrik enerjisinin ixracını nəzərdə tutan Yaşıl Enerji Dəhlizinin inkişafını vurğulayır. Burada Azərbaycanın və Mərkəzi Asiya dövlətlərinin potensialının birləşməsi xüsusilə mühüm rol oynayır. Əslində, tamamilə yeni bir energetika modeli yaranır ki, bu da Azərbaycanı təkcə qaz təchizatçısı deyil, həm də Avropaya yaşıl elektrik enerjisinin ötürülməsi üçün əsas tranzit mərkəzinə çevirə bilər.

**Aİ sülh gündəliyini dəstəkləyir**

Hazırkı mərhələnin digər xüsusiyyəti Avropa İttifaqının Cənubi Qafqazdakı mövcudluğunu gücləndirmək üçün getdikcə daha çox iqtisadi mexanizmlərdən istifadə etməsidir. Nəqliyyat infrastrukturunun, enerji şəbəkələrinin, rəqəmsal rabitənin və ticarət əlaqələrinin inkişaf etdirilməsi təklifləri uzunmüddətli əməkdaşlıq modelinə doğru keçidi göstərir. Bu, əsasən siyasi dialoqa yönəlmiş əvvəlki yanaşmalardan köklü surətdə fərqlənir. Hazırda Aİ faktiki olaraq, investisiya qarşılıqlı fəaliyyəti modelini təklif edir. Bu yanaşma hər iki tərəf üçün faydalıdır. Belə bir model Avropa üçün öz iqtisadi təhlükəsizliyini gücləndirmək və strateji əhəmiyyətli regionda iştirakını genişləndirmək deməkdir. Azərbaycan üçün isə iqtisadiyyatını şaxələndirmək, yeni investisiyalar cəlb etmək və dünyanın ən böyük iqtisadi bloku ilə əməkdaşlığı genişləndirmək imkanı təqdim edir.

Beynəlxalq müstəvidə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması hazırda da diqqət mərkəzindədir. Avropa İttifaqı sülh prosesinə təkcə siyasi və ya humanitar nöqteyi-nəzərdən baxmır. Bu gün sülh böyük iqtisadi layihələrin həyata keçirilməsi üçün ilkin şərtə çevrilir. Nəqliyyat marşrutları, enerji şəbəkələri, rəqəmsal rabitə və beynəlxalq ticarət sabit regional mühitin olmasını tələb edir. Məhz buna görə də Brüssel sərhəd bölgələrini dəstəkləmək üçün maliyyə mexanizmləri və iki cəmiyyət arasında iqtisadi əməkdaşlığın inkişafına yönəlmiş təşəbbüslər təklif edir. Bu, uzunmüddətli sülhün möhkəmləndirilməsi üçün iqtisadiyyatın təsirli vasitələrdən birinə çevrildiyi modelə tədricən keçidi göstərir.

Bu kontekstdə əsas amil Azərbaycanın müxtəlif qlobal güc mərkəzləri ilə eyni vaxtda münasibətlər qurmaq qabiliyyəti olaraq qalır. Avropa İttifaqı ilə



strateji tərəfdaşlıq ABŞ, Mərkəzi Asiya dövlətləri, Çin və digər beynəlxalq tərəfdaşlarla aktiv əməkdaşlıqla paralel inkişaf edir. Belə bir model ölkənin xarici siyasət imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Bu, həmçinin Avropa İttifaqı üçün Azərbaycanla qarşılıqlı fayda əsasında münasibətlər qurmaq, konkret layihələr və investisiyalar təklif etmək zərurəti deməkdir.

**Perspektivdə əməkdaşlıq daha da güclənəcək**

Mövcud tendensiyaları təhlil etdikdə belə bir qənaətə gəlmək olar ki, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin yaxın illərdə bir-biri ilə əlaqəli bir neçə sahədə inkişaf edə bilər. Birincisi, energetika əməkdaşlığı genişlənməyə davam edəcək. Lakin bu, artıq yalnız təbii qaza deyil, həm də bərpaolunan mənbələr və elektrik enerjisinin nəqli layihələrinə əsaslanacaq. İkincisi, nəqliyyat əlaqələrinin əhəmiyyəti getdikcə daha da yüksələcək. Orta Dəhliz tədricən Avropa ilə Asiya arasında ən vacib marşrutlardan birinə çevrilir və Azərbaycanın əsas tranzit ölkəsi kimi rolu durmadan artacaq. Üçüncüsü, infrastruktur layihələrinə, logistikaya, rəqəmsal texnologiyalara və regional ticarətin inkişafına Avropa investisiyalarının daha da artacağını gözləyə bilərik. Nəhayət, tərəflər arasında siyasi dialoq daha praqmatik hala gələcək. Əvvəllər siyasi fikir ayrılıqları Aİ-Azərbaycan münasibətlərinə tez-tez hakim olsa da, bu gün hər iki tərəfdə strateji maraqların üst-üstə düşdüyü sahələrə diqqət yetirmək səyləri artmaqdadır.

Ursula Fon der Lyayenin səfərinin əsas nəticəsi təkcə imzalanmış müqavilələrdə və ya verilən bəyanatlarda deyil. Avropa İttifaqı Azərbaycanla uzunmüddətli strateji mülahizələrə əsaslanan yeni münasibətlər modelinə doğru irəliləyiş nümayiş etdirir.

***Nardar BAYRAMLI***

# Azərbaycan susmur və qəti etirazını bildirir

Ukraynanın Nikolayev vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsinin dron hücumuna məruz qalması ilə əlaqədar Rusiya tərəfinə müvafiq nota təqdim edilib

Çoxvektorlu müstəqil xarici siyasət kursuna malik olan Azərbaycan digər dövlətlərlə münasibətlərini paritet əsaslarla qurur və hər zaman beynəlxalq hüquq normalarından çıxış edir. Ölkəmizin belə yanaşması həm coğrafi və əhali baxımından böyük, həm də kiçik dövlətlərə aiddir. Təəssüf ki, biz qonşu Rusiyadan respublikamıza qarşı eyni yanaşmanı izləmirik.

Son illərdə Azərbaycan-Rusiya münasibətlərində məhz qarşı tərəfin məsuliyyətsizliyi səbəbindən müəyyən ziddiyyətli proseslərin şahidi oluruq. Elə bu günlərdə Rusiya Ukrayna ərazisində Azərbaycana qarşı növbəti müharibə cinayətinə əl atıb. Belə ki, iyunun 5-də axşam saatlarında Ukraynanın Nikolayev vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsi Rusiya silahlı qüvvələrinin dron hücumuna məruz qalıb. Dron hücumu zamanı yanacaqdoldurma məntəqəsində partlayış baş verib və obyektə ciddi ziyan dəyib.

## Ölkəmiz yaxın qonşuluq prinsipinə sadiq qalsa da...

Azərbaycan bütün region dövlətləri ilə münasibətlərini Prezident İlham Əliyevin dəfələrlə əsaslandırdığı “heç bir ölkə qonşularla yaxşı əlaqələr qurmadan inkişaf edə bilməz” tezisinə uyğun qurur. Belə yanaşma həmçinin şimal qonşumuz olan Rusiyaya da aiddir. Azərbaycan və Rusiya 2022-ci il 22 fevral tarixində “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” imzalayıblar. Sənəddə iki ölkə arasında münasibətlərin xalqlarımızın mənafeyi naminə keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılması niyyəti ifadə olunub.

Özlüyündə bu bəyannamə hər iki tərəf üçün məsuliyyət yaradır. Azərbaycan öz məsuliyyətini yaxşı başa düşür və Rusiya ilə xoş niyyətə əsaslanan qonşuluq siyasətini davam etdirməkdə maraqlıdır. Ölkəmizin yanaşması belədir ki, çoxvektorlu əməkdaşlıqda hər iki tərəfin milli maraqları qorunmalı və suverenlik prinsipinə əməl olunmalıdır.

Ancaq eyni sözləri Rusiya barəsində söyləmək mümkün deyil. Son vaxtlarda bu ölkədən, necə deyərlər, yenidən Şimal küləyinin əsdiyi müşahidə edilir. Xüsusilə də Rusiyanın ayrı-ayrı dairələrində Azərbaycan zaman-zaman əsassız hücumlara məruz qalır ki, bütün bunlar da iki ölkə arasında tarixən formalaşmış dostluq ənənələrinə, yuxarıda bəhs etdiyimiz bəyannamənin ruhuna ziddir. Buna aid çoxlu sayda misallar göstərmək mümkündür. 2024-cü il dekabrın 25-də Bakıdan Qroznıya uçan “Azərbaycan Hava Yolları”na məxsus təyyarənin Rusiya səmasında vurulmasını xatırlayaq. Uzun müddət ərzində rəsmi Moskva hadisə ilə bağlı qeyri-müəyyən mövqe sərgilədi, iz azdırmağa, günahı başqalarının üzərinə atmağa çalışdı. Ancaq Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradə ortaya qoyması Rusiyanı geri çəkilməyə, həqiqəti dilə gətirib üzr istəməyə və adekvat hüquqi addımlar atmağa məcbur etdi. Həmçinin vaxtaşırı Rusiyanın ayrı-ayrı şəhərlərində miqrasiya qaydalarının möhkəmləndirilməsi bəhanəsi ilə azərbaycanlılara qarşı total hücumlar həyata keçirilir. Soydaşlarımız müxtəlif bəhanələrlə sıxışdırılır, təqib edilir, həbsə alınır və yaxud öldürülürlər. Bütün bunların konkret hansı cinayətlərə görə edildiyi isə izah olunmur. Əksinə, insanlığa, humanizm prinsiplərinə, yaxın qonşuluq münasibətlərinə zidd olan belə hadisələrlə paralel şəkildə Rusiyanın siyasi elitasına yaxın olan KİV-də Azərbaycana və xalqımıza münasibətdə “qara piar”a rəvac verilir...



## Respublikamıza qarşı təkrarlanan müharibə cinayətləri

İyunun 5-də baş verən hadisə Rusiyanın Ukraynada Azərbaycana qarşı törətdiyi yeganə müharibə cinayəti deyil. Belə hallar mütəmadi olaraq təkrarlanır. Rusiya silahlı qüvvələri Azərbaycanın Ukraynadakı enerji obyektlərini məqsədli şəkildə hədəfə alıb. Əvvəlcə Azərbaycan qazını Ukraynaya ixrac edən Transbalkan boru kəmərinə ziyan vuruldu. Bundan sonra ötən il avqustun 8-də Ukraynanın Odessa vilayətində SOCAR-a məxsus obyektə pilotsuz uçuş aparatları ilə hücum təşkil edildi. Eyni obyektə hücumlar bir neçə gün sonra yenidən təkrarlandı. Belə ki, avqustun 18-nə keçən gecə sözügedən neft bazası “Şahed” tipli PUA-ların silsilə hücumuna məruz qaldı. Verilən məlumatlara görə, bir neçə birbaşa zərbədən sonra ərazidə yanğın baş verib. Nəticədə 17 ədəd yanacaq çəni, nasosxana binası, operator və texniki otaqlar, eləcə də çəki məntəqələri zədələnib, ərazinin hasarı dağıdılıb.

2025-ci il noyabrın 14-də gecə saatlarında Rusiyanın Kiyevə endirdiyi raket və pilotsuz uçuş aparatları hücumu zamanı “İsgəndər” tipli ballistik raketlərdən biri Azərbaycanın Ukraynadakı səfirliyinin ərazisinə düşmüşdü. Partlayış nəticəsində səfirliyin hasarının bir hissəsi tamamilə dağılmış, inzibati bina zədələnmiş, konsulluq şöbəsinə ziyan dəymişdi. Səfirliyə aid xidməti avtomobillər tamam sıradan çıxmışdı.

Bundan başqa, 28 avqust 2025-ci il tarixində də Azərbaycanın Ukraynadakı səfirliyinə qarşı təxribata yol verilib. Belə ki, səfirliyimizin yaxınlığına - təxminən 50 metr məsafəyə endirilən hava zərbəsi nəticəsində səfirliyin inzibati binası, konsulluq şöbəsi və səfirin iqamətgahı zədələnib. Qeyd etmək yerinə düşər ki, hələ 2022-ci ilin aprel ayında Ukraynadakı bütün Azərbaycan diplomatik nümayəndəliklərinin dəqiq koordinatları Rusiya tərəfinə rəsmi qaydada təqdim olunub və Rusiya Müdafiə Nazirliyi həmin koordinatların nəzərə alınacağını bildirib. Lakin faktlardan da göründüyü kimi, Rusiya vədini yerinə yetirməyib və buna görə də hansısa bir izahat verməyə, üzr istəməyə lüzum görməyib.



Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir. Həmçinin respublikamız humanizm prinsipindən çıxış etməklə Ukraynaya humanitar yardımlar göndərir. Rusiyanı qəzəbləndirən amillərdən biri də məhz budur. Şimaldan gələn siqnallardan aydın olur ki, rəsmi Moskva postsovet məkanında yerləşən dövlətlərin Ukraynaya dəstək verməsini heç cür sinirə bilmir və onları cəzalandırmaq üçün ən çirkin vasitələrə əl atmaqdan çəkinmir. Bütün bunlar isə Rusiyanın çarəsizliyinin göstəricisidir. Moskvada anlamalıdırlar ki, müharibə döyüş meydanında aparılır. Kreml təmsilçiləri Azərbaycanın Ukraynaya humanitar yardım göstərməsini tamam fərqli, reallıqla heç bir əlaqəsi olmayan baxış bucağından təqdim edirlər. Guya Azərbaycan Ukraynaya humanitar yardım yox, silah göndərib.

Bütün bunlar Rusiyanın hələ də imperiya təfəkkürünün girovluğunda qaldığını təsdiqləyir. Zaman dəyişsə də, Kremlin yaxın və uzaq coğrafiyalara münasibətdə siyasəti dəyişmir.

## Rusiya izahat verməlidir

Ukraynada Rusiya ordusu tərəfindən Azərbaycana qarşı törədilmiş son müharibə cinayəti ölkəmizdə ciddi narahatlıqla qarşılanıb. Azərbaycan susmur və qəti etirazını bildirir. İyulun 6-da Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı, iyulun 5-də axşam saatlarında Ukraynanın Nikolayev vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsinin dron hücumuna məruz qalması ilə əlaqədar kəskin etiraz bildirilib və Rusiya tərəfinə müvafiq nota təqdim edilib.

Görüşdə, sözügedən dron hücumunun ilk hal olmadığı, bundan əvvəl də qazpaylayıcı kompressor stansiyası və Odessada neft bazasına hücumlar daxil olmaqla, Ukraynada SOCAR-a məxsus obyektlərin hərbi zərbələrə və hərbi əməliyyatların digər dağıdıcı təsirlərinə məruz qaldığı, nəticədə əhəmiyyətli maddi ziyan dəydiyi, şirkətin əməkdaşları arasında yaralananlar olduğu xatırlanıb.

Dəfələrlə xəbərdarlığa baxmayaraq, belə halların davam etməsinin hücumların məqsədyönlü şəkildə həyata keçirildiyinə dəlalət etdiyi bildirilib.

Görüşdə, həmçinin Kiyevdəki səfirliyimizin və Xarkov şəhərində yerləşən fəxri konsulluğun binalarının zərər gördüyü bir neçə hava zərbələrinə diqqət yönəldilib, Vyana Konvensiyalarına uyğun olaraq diplomatik və konsulluq nümayəndəliklərinin binalarının qorunması üzrə öhdəliklərə ciddi riayət edilməsinin vacibliyi vurğulanıb.

Rusiya tərəfi qeyd olunan bütün faktlar üzrə hərtərəfli araşdırma aparmağa, baş vermiş hallara bağlı müvafiq izahat verməyə, habelə mülki obyektlərin və diplomatik nümayəndəliklərin qorunması üzrə beynəlxalq öhdəliklərə riayət etməyə çağırılıb.

***Mübariz ABDULLAYEV***

# Ankara Zirvəsi başladı...

## NATO ölkələri qlobal təhlükəsizliklə bağlı prioritetləri müəyyən edir




Türkiyə 22 ildən sonra tarixi NATO Zirvəsinə ev sahibliyi edir. Gündəmin əsas mövzusu isə Haaqa Zirvə toplantısında verilən öhdəliklərin icrasıdır - bu öhdəliklərə əsasən, müttəfiqlər 2035-ci ilə



qədər ümumi daxili məhsullarının 5 faizini müdafiəyə ayıracaqlar.7-8 iyul tarixlərini əhatə edən 36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvə Toplantısı transatlantik müdafiə istehsalı və əlaqəli investisiyalara yönələcək Müdafiə Sənayesi Forumu ilə başlayıb. ATO Konqres Mərkəzində keçirilən Müdafiə Sənayesi Forumu NATO tarixində ən əhatəli sənaye tədbiri sayılır.

**Cevdet Yılmaz: İlk 10-luğa daxil olmağı hədəfləyirik...**

Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Müdafiə Sənayesi Forumunda bildirib ki, “Bu gün Türkiyə dünyada müdafiə ixrac edən ölkələr arasında 11-ci yerdədir. Yaxın gələcəkdə ilk 10-luğa daxil olmağı hədəfləyirik”. O, qeyd edib ki, son 1 ildə müdafiə və aerokosmik ixracatımız 11 milyard dolları keçib. İxracatımızın yarıdan çoxu NATO müttəfiqlərimizə və AB ölkələrinə edilib.

**Yaşar Gülər: NATO-da ikinci ən böyük və çox güclü bir ordumuz var**

Milli müdafiə naziri Yaşar Gülər NATO Zirvəsi çərçivəsində Münhen Təhlükəsizlik Konfransı (MSC) və SETA Fondu ilə əməkdaşlıq müstəvisində təşkil edilən “Ankarada Müttəfiqlər” proqramında verdiyi açıqlamada bildirib ki, NATO özünü gücləndirməyə çalışan bir təşkilatdır. Nazir qeyd edib ki, burada müttəfiqləri daha real şəkildə bir araya gətiririk: “Transatlantik ələqəmizi gücləndiririk, ABŞ ilə ələqəmizi qoruyuruq və potensialımızı artırırıq. NATO-nun 360 dərəcəlik perspektivi qorunması lazımdır. Belə bir kritik dövrdə Avropa müttəfiqləri daha çox məsuliyyət daşımalıdırlar, lakin buna yalnız yüksək büdcələr göstərməklə nail olmaq mümkün deyil; bu, logistika, əhəmiyyətli imkanlar, coğrafi yer, hazırlıq, potensial və böhranlara cavab vermək bacarığı tələb edir”.

Nazir Gülər bildirib ki, Türkiyənin böyük və aktiv silahlı qüvvələri var. Türkiyənin müdafiə sənayesi səyləri fayda verib: “Ölkəmizin NATO 3.0-dakı yeri çox aydındır. Yaxşı qurulmuş təhsil strategiyasına və güclü hərbi struktura malikdir. Bu, böhranlara çox tez reaksiya verməyə imkan yaradır. 1952-ci ildən Türkiyə hər zaman riskləri qiymətləndirməli və böhranları idarə etməli olub. Bu, çəkindirici olmalı idi. NATO-da ikinci ən böyük və çox güclü bir ordumuz, gücümüzü artıran bir çox fərqli amillərimiz var.”

O, əlavə edib ki, Ukraynadakı müharibə sursat təchizatının sürətinin, pilotsuz sistemlərin, hava/raket müdafiəsinin, elektron müharibənin və sürətli innovasiyanın vacibliyini göstərdi. Hörmüz boğazındakı hadisələr təchizat zəncirlərinin və nəqliyyat yollarının təhlükəsizliyinin artıq müdafiə planlaşdırmasının ayrılmaz hissəsi olduğunu sübut etdi: “Biz həmçinin NATO-nun 2 faiz müdafiə investisiya öhdəliyini vacib hesab edirik. Çünki bu öhdəlik həm də alyansın çəkindirməni gücləndirmək, müdafiə istehsalını genişləndirmək və ehtiyac duyduğumuz imkanları vaxtında yerləşdirmək iradəsinin konkret nümayişidir”.

**Münhen Təhlükəsizlik Konfransı və SETA Fondu ilə əməkdaşlıq**

Sursat və texnologiyaya qoyulan investisiyalara toxunan Gülər deyib ki, 155 millimetrlik sursat istehsal gücümüzü sürətlə artırdıq və bu sahədə konkret nəticələr verən müttəfiqlərdən birinə çevrildik: “ROKETSAN-ın yeni istehsal və inteqrasiya investisiyaları ilə raket və sursat istehsal güclərimizi əhəmiyyətli dərəcədə genişləndiririk. ASELSAN və HAVELSAN kimi şirkətlərin radar, elektron müharibə, rabitə, komandanlıq və idarəetmə, proqram təminatı, simulyasiya və süni intellekt dəstəkli sistemlərə investisiyaları müdafiə sənayesi potensialımızı təkcə kəmiyyətcə deyil, həm də keyfiyyətcə inkişaf etdirir”.

Nazir Gülər, həmçinin əməkdaşlığı vurğulayaraq bildirib ki, “Sahədə uğur yalnız mövcud ehtiyatlardan deyil, həm də sürətli öyrənmə, sürətli istehsal və sürətli uyğunlaşma qabiliyyətindən asılıdır. Dron texnologiyalarından elektron müharibəyə, sursat istehsalından proqram təminatının yenilənməsinə qədər bir çox sahədə əsgərlər, mühəndislər, sahibkarlar və qərar qəbul edənlər arasındakı məsafə nə qədər qısa olarsa, döyüş meydanında effektivlik bir o qədər yüksək olar. Buna görə də, bizim vəzifəmiz sülh dövründə bu əməkdaşlıq mədəniyyətini qurmaqdır.”

Kommunikasiya direktoru Burhanəddin Duran Münhen Təhlükəsizlik Konfransı (MSC) və SETA Fondu ilə əməkdaşlıq müstəvisində təşkil edilən “Müttəfiqlər Ankarada” proqramında verdiyi açıqlamada bildirib ki, biz Şərq və Qərb arasında bir körpüyük. Son 20 ildə yeni bir müdafiə ekosistemi qurduq: “Türkiyə müdafiə sənayesində çox vacib bir ölkəyə çevrilib.”

**Hakan Fidan: Məhdudiyyətlər strateji yükə çevrilib**

NATO Zirvəsi ilə bağlı açıqlama verən xarici işlər naziri Hakan Fidan isə deyib ki, Ankarada qəbul ediləcək qərarlar təcili problemləri həll etməklə yanaşı, illər ərzində oturuşacaq Avro-Atlantik təhlükəsizlik mühitini formalaşdıracaq: “Kollektiv müdafiə NATO-nun əsas elementi olaraq qalır, lakin strateji mühit dəyişir. Təhdidlər çoxölçülü, daha sürətli və daha mürəkkəb hala gəlir. Ənənəvi tədbirlər artıq bu reallığı əks etdirə bilməz. İndi vacib olan bunlardır: yerləşdirilə bilən qabiliyyət, sənaye gücü və əməliyyat hazırlığı. Daha güclü Avropa töhfəsi vacibdir - lakin müdafiə-sənaye əməkdaşlığındakı məhdudiyyətlər səmərəliliyi sarsıdır və cavabı yavaşladır. Bu məhdudiyyətlər strateji yükə çevrilib. Ankara Zirvəsi Alyansın strukturunu yeni nizama uyğunlaşdırmağa istiqamətləndirəcək. Türkiyənin məqsədi aydındır: daha vahid, daha sərişteli və daha dayanıqlı Alyans”.

**Rutte: Güclü olmaq üçün birlikdə çalışmalıyıq**

Sammitin ilk günündə baş tutan Müdafiə Sənayesi Forumunda açıqlama verən NATO-nun Baş katibi Mark Rutte alyansın əldə edəcəyi 10-cu Airbus A330 MRTT təyyarəsi ilə hava gücünü daha da



artıracağını bildirib. Rutte açıqlamasında bunları deyib: “”Futbol bənzətməsi ilə başlayacağam. Heç bir komanda bir milyon oyunçu və ya bir oyunçu ilə qalib gəlmir. Komanda işi nəticəsində qollar vurur. Hər uğurlu oyunçunun arxasında çoxlu insan çalışır. Heç kim təkbaşına qalib gəlmir. NATO-da da oxşar vəziyyətdir. Uğurla müdafiə olunmaq üçün birlikdə çalışmalıyıq”.

Rutte bildirib ki, silahlı qüvvələrimiz daim bir yerdədir: “Güclü olmağımız üçün hamımız oyunda olmalı və birlikdə çalışmalıyıq. Ordularımıza ehtiyac var. Türkiyədəki silah fabriklərinə də baş çəkdim. Buradakı yenilikləri və fürsətləri gördüm. Bu forumda tərəfdaşlığımızın irəliləyişini izləyə bilərəm. Bu, əməkdaşlıq edən bir komandadır.”

**Haluk Görgün: Vaxt azdır, sənaye potensialımızı gücləndirməliyik**

Türkiyə Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün Türkiyə müdafiə sənayesinin NATO-nun ehtiyac duyduğu sənaye transformasiyasının hərəkətverici qüvvələrindən biri olmağa hazır olduğunu bildirib. Müdafiə Sənayesi Forumunun açılışındakı çıxışında Görgün forumun təsirlərinin və nəticələrinin illərlə davam edə biləcəyini bildirib: “Son üç ildə dünyanın dəmək olar ki, hər bölgəsində ciddi pozuntular, müharibələr və təhlükəsizlik təhdidləri müdafiə arxitekturasını yenidən formalaşdırıb. Bugünkü forum bu fonda keçirilir. Çox az vaxtımız var, sənaye potensialımızı gücləndirməliyik və heç bir ölkə bu yükü təkbaşına daşıya bilməz. Cənab Ruttenin tez-tez vurğuladığı kimi, bu məqsədlər yalnız NATO üzvlərinin birlikdə hərəkət etməsi halında reallaşacaq. Türkiyə müdafiə sənayesi olaraq, NATO-nun ehtiyac duyduğu sənaye transformasiyasının arxasında duran hərəkətverici qüvvələrdən biri olmağa hazırıq”.

İspaniya ilə müasir reaktiv təlim təyyarələri sahəsində əməkdaşlığa, Polşadakı elektron müharibə və sərhəd təhlükəsizliyi infrastrukturu ilə bağlı tərəfdaşlığa və Rumıniya, Macarıstan və Estoniyanın quru və dəniz inventarlarının gücləndirilməsi səylərinə toxunan Görgün bildirib:

“Müasir reaktiv təlim təyyarələri ilə bağlı İspaniya ilə əməkdaşlığımızda, Polşadakı elektron müharibə və sərhəd təhlükəsizliyi infrastrukturu ilə bağlı tərəfdaşlığımızda, Rumıniya, Macarıstan və Estoniyanın quru və dəniz inventarlarının gücləndirilməsi səylərimizdə və Polşada yerləşdirilən Bayraktar TB2 donanmasının transatlantik dayanıqlığını artırmaq fəaliyyətlərimizdə müttəfiqlərimizə təklif etdiyimiz sənaye töhfələrinin izlərini görə bilərsiniz. Bu imkanları NATO çətiri altında yeni təşəbbüslərə də daşımaq istəyirik”.

**Tramp Ankarada...**

Zirvənin birinci günü qonaqlar Ankaraya gəliblər. ABŞ prezidenti Donald Tramp da Ankaraya səfər edib. Prezident Rəcəb Tayyib Ərdoğan Donald Trampı Ankara Hava Limanında qarşılayıb. Daha sonra Beştəpə Prezident Kompleksində iki ölkə başçısı arasındav görüş keçirilib. Xatırladaq ki, Donald Tramp 17 ildən sonra Türkiyəyə səfər edən ilk ABŞ prezidentidir.

Eləcə də NATO-nun 36-cı Dövlət və Hökumət Başçıları Zirvə Görüşü çərçivəsində Prezidentliyin Kommunikasiya İdarəsi Münhen Təhlükəsizlik Konfransı (MSC) və Siyasi, İqtisadi və Sosial Tədqiqatlar Fondu (SETA) ilə əməkdaşlıq çərçivəsində “Müttəfiqlər Ankarada” proqramı müstəvisində “Zirvə Görüşünə Doğru” adlı panel təşkil edilib.

***P.İSMAYILOV***

# Milli Məclisin iclasında...
# Millət vəkilləri 17 məsələni müzakirə ediblər

İyulun 7-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 17 məsələ daxil edilib. Əvvəlcə deputatlar “Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “İctimai iştirakçılıq haqqında” və “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda qəbul ediblər. Dəyişikliklər ictimai dinləmə və müzakirənin təşkili prosesinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən də həyata keçirilməsinin qanunvericilik əsaslarının yaradılmasını özündə ehtiva edir.

Daha sonra “Ümumi təhsil haqqında” Qanuna təklif edilən dəyişikliklər üçüncü oxunuşda qəbul olunub. “Ümumi təhsil haqqında” Qanunda dövlət siyasətinin millilik və dünyəvilik prinsipləri əsasında həyata keçirilməsinin daha da gücləndirilməsi məqsədilə qanun layihəsində bir sıra məsələlərin tənzimlənməsi nəzərdə tutulur. Belə ki, qanun layihəsinin 12.13-cü maddəsinə əlavə edilən yeni müddəaya əsasən, dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər üçün geyimlə bağlı tələblərin müəyyən edilməsi təsbit olunur. Həmin tələblərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyənləşdirilməsi nəzərdə tutulur.

Hazırda dövlət ümumi təhsil müəssisələrində təhsilalanlar üçün vahid geyim formaları təsbit edilir. Bu baxımdan, qanun layihəsinə əlavə edilən yeni 24.2.2-1-ci maddəyə əsasən, təhsilalanların geyim forması ilə bağlı müəyyən olunmuş tələblərə riayət edilməsinin valideynlərin və ya digər qanuni nümayəndələrin vəzifəsi kimi müəyyənləşdirilməsi təklif olunur.

Millət vəkilləri “Kraudfandinq haqqında” yeni qanun layihəsini isə birinci oxunuşda qəbul ediblər. Qanun Azərbaycanda səhm və borc əsaslı kraudfandinqin həyata keçirilməsinin hüquqi, təşkilati və iqtisadi əsaslarını, kraudfandinq platforması operatorunun fəaliyyətinə dair tələbləri, habelə onların fəaliyyəti üzərində dövlət tənzimləməsi və nəzarəti məsələlərini tənzimləyəcək. 7 fəsil, 23 maddədən ibarət olan qanunun məqsədi iqtisadi fəaliyyət subyektlərinə, xüsusilə də startaplara, mikro, kiçik və orta sahibkarlara onların biznes aktivliyinin artırılması məqsədilə informasiya ehtiyatlarından və sistemlərindən, habelə kapital bazarının imkanlarından istifadə etməklə operativ və davamlı alternativ maliyyələşmə kanallarına əlverişli çıxış imkanlarının yaradılması və maliyyələşmədə iştirak edən investorların hüquqlarının müdafiəsini təmin etməkdir.

İclasda Əmək Məcəlləsində, Mülki Məcəllədə, “Valyuta tənzimi haqqında”, “Banklar haqqında”, “İnvestisiya fondları haqqında” və “Qiymətli kağızlar bazarı haqqında” qanunlarda dəyişiklik edilməsi barədə layihə də birinci oxunuşda qəbul olunub. Layihəyə əsasən rəqəmsal xidmətlər üzrə xaricə ödənişlər sadələşdirilir, korporativ müqavilələrdə xarici hüququn tətbiqinə icazə verilir. Belə ki, rezident hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən xarici dövlətlərdə yerləşən təminatçılara rəqəmsal xidmətlər, proqram təminatı lisenziyaları, bulud (server) xidmətləri və beynəlxalq kommersiya abunəlikləri üzrə ödənişlərin aparılması qaydası sadələşdirilir. Dəyişikliklə təqvim ayı ərzində ümumi məbləği 200 min ABŞ dolları ekvivalentinədək olan köçürmələr ikitərəfli müqavilə təqdim edilmədən, yalnız xidmətin təyinatını əks etdirən elektron hesab-faktura və ya ödəniş bildirişi əsasında həyata keçirilə biləcək.



Qanun layihəsində, həmçinin ilk dəfə korporativ müqavilələr üzrə tərəflərə yaranacaq mübahisələrin həllində xarici dövlət hüququnun tətbiqi barədə razılığa gəlmək imkanı yaradılır. Belə ki, tərəflər Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidenti olmalarından asılı olmayaraq, korporativ müqavilədə xarici hüququn tətbiqini və mübahisələrin arbitraj yolu ilə həllini müəyyən edə biləcəklər. Bundan başqa, korporativ müqavilələrdə səsvermə qaydaları, səhmlərin alqı-satqısı, investisiya qoyuluşu, idarəetmə orqanlarının formalaşdırılması, xüsusi hüquqlar, veto mexanizmləri və digər mühüm məsələlərin də tərəflərin razılığı əsasında tənzimlənməsi nəzərdə tutulur.

Milli Məclis “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişiklikləri də birinci oxunuşda qəbul edib. Qanun layihəsi informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi, informasiya infrastrukturunun kibertəhdidlərdən qorunması, kibertəhlükəsizlik üzrə institusional mexanizmlərin yaradılması və rəqəmsal inkişaf proseslərinin hüquqi əsaslarının müəyyən edilməsi məqsədilə hazırlanıb.

Deputatlar Vergi Məcəlləsinə təklif edilən dəyişiklikləri də birinci oxunuşda qəbul ediblər. Qanun layihəsi neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektor təmsilçilərinə ƏDV-nin depozit hesabından Dövlət Sosial Müdafiə Fonduna vəsait köçürmək imkanının yaradılması məqsədilə hazırlanıb. Layihəyə əsasən, 2027-ci il yanvarın 1-dən 4 il müddətinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və şərtlərlə ƏDV-nin depozit hesabından Dövlət Sosial Müdafiə Fonduna vəsait köçürülə bilər.

Gömrük Məcəlləsinə də bir sıra dəyişikliklər təklif edilir. Layihəyə əsasən, Azərbaycan ərazisinə idxal edilən qeyri-qida istehlak mallarına tətbiq edilən rejimin yerli və ya digər ölkə mənşəli oxşar mallara tətbiq edilən rejimlə eyniliyi təmin edilməklə rəqabət mühiti qorunacaq, yerli istehsal dəstəklənəcək, idxalda texniki reqlamentlərə, yəni insanların həyat və ya sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinə yönəldilmiş məcburi tələblərə cavab verməyən malların ölkəyə daxil olmasının qarşısı alınacaq.

Ölkədə sahibkarlığın inkişafına və biznes mühitinin dəstəklənməsinə yönəldilmiş dövlət siyasəti prioritetləri nəzərə alınmaqla, qeyri-qida istehlak mallarının idxalı ilə məşğul olan təsərrüfat subyektlərinə fəaliyyətlərini yeni qanunvericiliyin tələblərinə uyğunlaşdırılması məqsədilə layihədə 24 ay keçid dövrü nəzərdə tutulub.

Deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini qəbul ediblər.

***Nardar BAYRAMLI***

# BMT "ASAN xidmət"in dünyada təşviqinə böyük maraq göstərir

Bir neçə gün bundan əvvəl Azərbaycanın "ASAN xidmət" modeli BMT-nin "Dövlət institutlarının transformasiyası: İnnovasiyanın, iştirakın və inklüzivliyin inkişafı" mövzusunda Tbilisidə baş tutan Dövlət Xidməti Forumunda geniş təqdim olunub. BMT-nin Dövlət Xidməti Forumu dövlət xidmətləri sahəsində fəaliyyət göstərən ekspertləri, eləcə də müxtəlif ölkələrin müvafiq dövlət qurumlarını bir araya gətirən mühüm beynəlxalq platformadır.

Xatırladaq ki, 2015-ci ildə BMT-nin Dövlət Xidməti Forumunda Azərbaycanın "ASAN xidmət" modeli dövlət xidmətləri sahəsində dünyanın ən yaxşı təcrübəsi kimi birinci yerə layiq görülüb. Həmçinin forum 2019-cu ildə Cənubi Qafqaz regionunda ilk dəfə Azərbaycanda keçirilib.

Bundan əvvəl isə "ASAN xidmət" BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Dayanıqlı İnkişaf Məqsədi 16 (DİM 16) üzrə Konfransda diqqət mərkəzində olub. İtaliyanın BMT yanında Daimi Nümayəndəliyi, BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti və Beynəlxalq İnkişaf Hüququ Təşkilatı tərəfindən birgə təşkil olunan Konfrans "Dayanıqlı inkişaf naminə transformasiya və əlaqələndirilmiş fəaliyyət" mövzusunda keçirilib.

## Azərbaycanın müasirləşmə siyasətinin gözəl nümunəsi

Hər iki beynəlxalq tədbirdə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ölkəmizdə dövlət başçısı İlham Əliyev tərəfindən vətəndaşyönümlü dövlət idarəçiliyi istiqamətində həyata keçirilən islahatlar, şəffaf, əlçatan və inklüziv dövlət xidmətlərinin təşkili sahəsində əldə olunan nailiyyətləri, eləcə də "ASAN xidmət" modelinin DİM 16-nın hədəflərinin həyata keçirilməsindəki əhəmiyyətli rolunu vurğulayıb. Bildirilib ki, "ASAN xidmət" modeli dövlət xidmətlərinin göstərilməsində şəffaflığın və hesabatlılığın təmin olunmasına, vətəndaş məmnunluğunun və institusional səmərəliliyin artırılmasına xidmət etməklə, güclü institutların formalaşdırılmasına və inklüziv cəmiyyət quruculuğuna mühüm töhfələr verir.

Azərbaycan qısa müstəqillik tarixində uğurlu yol keçərək dünyaya nümunəvi inkişaf modeli təqdim edən ölkəyə çevrilib. O cümlədən respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında aparılan islahatların nəticəsi olaraq inklüziv, vətəndaş məmnunluğunu artıran, müasirləşməni hədəfləyən çevik və səmərəli idarəetmə modeli formalaşıb. "ASAN xidmət" modeli də bunun gözəl nümunəsidir. Respublikamızda dövlət başçısının müvafiq Fərmanı əsasında 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. Dövlət idarəçiliyi sahəsində islahatların tərkib hissəsi kimi yaradılan "ASAN xidmət"in respublikamızda yüksək populyarlıq qazanması üçün böyük zaman kəsiyi lazım gəlməyib. Bakıda pilot layihə kimi əsası qoyulan "ASAN xidmət" mərkəzləri özünü doğruldub və respublikamızda qısa müddətdə bu şəbəkənin coğrafiyası regionlara doğru genişlənib.



Hazırda Azərbaycanda 28 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. Paytaxtda və regionlarda hər gün "ASAN xidmət" mərkəzlərinə təxminən 40 min vətəndaş müraciət edir və onların məmnunluq səviyyəsi 99 faizin üzərində olur. Eyni zamanda, regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir.

Çox doğru olaraq "ASAN xidmət" mərkəzləri Azərbaycanın intellektual brendi kimi dəyərləndirilir. Burada vətəndaşlara müxtəlif xidmətlər innovativ texnologiyalardan geniş istifadə edilməklə göstərilir. Nəticədə, şəffaflıq tam təmin olunur və vətəndaş-məmur təmasları aradan qalxır.

## "ASAN xidmət"ə ölkə hüdudlarından kənarda artan maraq

Tbilisidə baş tutan forum çərçivəsində Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevlə Şri-Lankanın və Banqladeşin müvafiq sahə üzrə fəaliyyət göstərən nazirləri, eləcə də Gürcüstanın ədliyyə naziri arasında ikitərəfli görüşlər keçirilib. Şri-Lanka və Banqladeş nümayəndələri ilə görüşlərdə "ASAN xidmət"in fəaliyyət istiqamətləri və əldə etdiyi nailiyyətlər barədə geniş təqdimat edilib. Hər iki tərəf "ASAN xidmət" modelinin öz ölkələrində tətbiqi ilə bağlı niyyətlərini bildirib.

Dünyada "ASAN xidmət" modelinə marağın artması Azərbaycanın böyük uğurudur. İndiyədək əlçatanlığı ilə yüksək vətəndaş məmnunluğu yaradan bu struktur bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunub. Artıq ayrı-ayrı ölkələrdə də bu modelin tətbiqinə başlanıb. Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə "ASAN xidmət" İSO 9001:2008 və OHSAS 18001:2007 standartları üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Bundan başqa, ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub.

Perspektivdə isə "ASAN xidmət" brendinin dünyada əhatə edəcəyi coğrafiyaların daha da genişlənəcəyi gözlənilir.




Beynəlxalq əməkdaşlığa dair son nümunələrdən biri kimi İndoneziya və Azərbaycan arasında ötən ilin dekabr ayında onlayn formatda baş tutan dövlət xidmətləri üzrə Simpoziumu göstərmək mümkündür. Tədbir 24 iyul 2017-ci il tarixində imzalanmış Anlaşma Memorandumu və onun davamı olaraq 1 iyul 2024-cü il tarixində Cakarta şəhərində imzalanmış Fəaliyyət Planı çərçivəsində təşkil olunub. Həmin sənədlərə uyğun olaraq hazırda İndoneziya Respublikasında "ASAN xidmət" təcrübəsi əsasında yaradılmış 300-dən çox Dövlət Xidmət Mərkəzi fəaliyyət göstərir.

Artıq Avropa İttifaqının üzv dövləti olan Rumıniya da "ASAN xidmət" modelinə böyük maraq göstərir. Ötən ilin dekabr ayında Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rumıniya Hökumətinin Baş Katibliyinin dəvəti əsasında bu ölkəyə səfəri baş tutub. Səfər çərçivəsində "ASAN xidmət"in Rumıniyada tətbiqi ilə bağlı növbəti müzakirələr aparılıb. Eyni zamanda, Rumıniya Hökumətinin Baş Katibliyinin təşkilatçılığı ilə keçirilən "Dövlət Sektorunda İnnovasiya Forumu"nda "ASAN xidmət"ə dair mükafat ilk dəfə olaraq Avropa İttifaqına üzv ölkənin nümayəndələrinə təqdim olunub..

Həmçinin bir qədər bundan əvvəl Sudan Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Müaviyə Osman Xalidin rəhbərlik etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Nazir müavini "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin, buradakı innovativ yeniliklərin onlarda yüksək təəssürat yaratdığını və sözügedən təcrübənin öz ölkəsində tətbiqində maraqlı olduqlarını ifadə edib.

Cari il yanvarın 14-də isə "ASAN xidmət"in sorağı daha bir uzaq ünvandan - bu dəfə dost Pakistandan gəlib. Bu ölkənin İslamabad şəhəri dünyada "ASAN xidmət" mərkəzinin fəaliyyətə başladığı növbəti ünvan olub. Son olaraq isə bir neçə gün bundan əvvəl Çad Respublikasının iqtisadiyyat, maliyyə, büdcə və beynəlxalq əməkdaşlıq naziri Tahir Hamid Nguelinin rəhbərlik etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Tanışlıqdan məmnun qalan qarşı tərəf Azərbaycanın "ASAN xidmət" təcrübəsinin öz ölkələrində tətbiqində maraqlı olduğunu bildirib.

*Mübariz FEYİZLİ*

# Ermənistanda yeni siyasi gərginlik

## Revanşistlər Tsarukyanın həbsindən narahatdırlar - növbə kimə çatacaq?

İyunun 7-də baş tutan parlament seçkisindən sonra Ermənistandakı siyasi gərginlik müəyyən mənada azalsa da, ölkənin Konstitusiya Məhkəməsinin seçkinin nəticələri ilə bağlı qərarının ardından vəziyyət yenidən dəyişib. Hakimiyyətin revanşist müxalifətin fəaliyyətinin araşdırılması ilə bağlı mövqeyi nəticə etibarı ilə Ermənistanda siyasi qarşıdurma yaratmaq istəyən qüvvələrin narahatlığına səbəb olub. Qeyd edək ki, iyulun 6-da Çiçəklənən Ermənistan Partiyasının sədri Qaqik Tsarukyan həbs olunub.



**21.072.827 dollar dəyərində əmlak mənimsənilib ...**

Ermənistan İstintaq Komitəsi Tsarukyanın həbsi ilə bağlı rəsmi açıqlama yayıb. Açıqlamada bildirilir ki, Ermənistan Respublikası İstintaq Komitəsinin İqtisadi Cinayətlər və Qaçaqmalçılıq üzrə Baş İdarəsi tərəfindən araşdırılan cinayət işlərindən birinin hissəsi olaraq, Q.Tsarukyanın planı və təşkilatçılığı ilə bir qrup şəxsin 2022-2024-cü illər arasında xüsusilə böyük miqyasda - külli miqdarda fırıldaqçılıq və çirkli pulların yuyulması ilə məşğul olduqlarını göstərən faktiki sübutlar əldə edilib. Tsarukyanın rəhbərliyi və təşkilatçılığı altında fəaliyyət göstərən cinayətkar qrupun üzvləri İran vətəndaşları ilə Ermənistan-İran ticarət əlaqələrini inkişaf etdirmək üçün razılığa gəliblər və birgə hüquqi şəxslər yaradıblar. İran və Ermənistan arasında logistika yük daşınmasını təşkil etmək adı altında saxtakarlıq və etibardan sui-istifadə yolu ilə İran sahibkarlarına məxsus şirkətlərdən 52 nəqliyyat vasitəsi, ixtisaslaşdırılmış avadanlıq, yanacaq və müxtəlif mallar əldə ediblər, həmin malları Ermənistana idxal ediblər. Daha sonra, biznes fəaliyyəti kimi təqdim edərək, gömrük bəyannamələrini və digər rəsmi sənədləri saxtalaşdırıblar və daha sonra təxminən 8.126.946.460 dram (21.072.827 dollar) dəyərində əmlakı mənimsəyiblər.

İstintaq Komitəsi bildirib ki, qrup üzvləri sonradan cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırmaq məqsədilə idxal sənədlərini saxtalaşdırmaqla onun mənşəyini gizlədiblər və əmlakın bir hissəsini özgəninkiləşdiriblər.

**Çirkli pulların yuyulması və külli miqdarda vergidən yayınma...**

İstintaq materiallarına görə, Tsarukyan yanacaq idxalı və satışı ilə məşğul olan şəxslərlə cinayətkar əlaqədə olub. Onlar yanacaq idxalı sövdələşməsinin bir hissəsi olaraq İran vətəndaşından 934.465 dolları dələduzluq yolu ilə mənimsəyiblər və bu vəsaitlər cinayət mənşəyini gizlətmək üçün şirkətin qanuni dövriyyəsinə daxil edilib.

Nəticə etibarı ilə, toplanan sübutlara əsasən, İqtisadi Cinayətlər və Qaçaqmalçılıq üzrə Baş İdarə Qaqik Tsarukyana qarşı xüsusilə külli miqdarda fırıldaqçılıq təşkil etmək (iki maddə) və çirkli pulların yuyulmasını təşkil etmək ittihamları ilə dövlət ittihamının qaldırılması üçün vəsatətlər təqdim edib. Cinayətkar qrupun digər iki üzvünə qarşı da oxşar ittihamlar irəli sürülüb. Vəsatətlər təmin edilib.

İstintaq Komitəsinin əməkdaşları fırıldaqçılıq, çirkli pulların yuyulması və külli miqdarda vergidən yayınma ilə bağlı ondan çox cinayət işinin istintaqı çərçivəsində Milli Təhlükəsizlik Xidmətinin, Dövlət Gəlirləri Komitəsinin və Daxili İşlər Nazirliyinin polis nümayəndələri ilə birlikdə 70-dən çox yerdə eyni vaxtda axtarış aparıblar. Komitənin məlumatına görə, istintaq zamanı cinayət işi ilə bağlı sənədlər və əşyalar, o cümlədən oğurlandığı güman edilən nəqliyyat vasitələri aşkar edilib.

**Tsarukyanın qeyri-qanuni ovları...**

Tsarkyanın evində aparılan axtarış zamanı başqa bir maraqlı detal da üzə çıxıb. Belə ki, yeni ittiham qanunsuz ov və vəhşi heyvanların saxlanılması ilə bağlıdır. Ermənistanın İstintaq Komitəsinin məlumatına görə, Qaqik Tsarukyanın malikanəsində aparılan axtarışlardan sonra vəhşi heyvan və quşların qanunsuz ovlanması faktı üzrə yeni cinayət işi açılıb. İstintaq çərçivəsində malikanədən əvvəlcədən sakitləşdirici vurulmuş üç şir və bir pələng çıxarılıb. Bundan başqa, mənşəyi açıqlanmayan 190 heyvan və quş müqəvvası da aşkarlanaraq götürülüb. İstintaqın versiyasına görə, qanunsuz ov nəticəsində ətraf mühitə 81 min dollardan çox ziyan dəyib. Müsadirə olunan heyvanlar cinayət işi üzrə maddi sübut kimi tanınıb və İrəvan Zooparkına aparılıb.

**Revanşist qrup həbsin üzərinə "siyasi pərdə" çəkmək istəyir**

Tsarukyanın həbsi isə revanşist müxalifətin işini çətinə salıb. Bəlli olduğu kimi, Tsarukyanın rəhbərlik etdiyi siyasi partiya seçkilərdə baryeri aşacaq səviyyədə səs toplamamışdı və parlamentdən kənarda qalmışdı. Qeyd edək ki, Samvel Karapetyanın ifşası və həbsinin ardından Tsarukyan revanşist qrupun maliyyə "xaç atası" sayılırdı. Bu baxımdan da, hazırda revanşist müxalifət maliyyə fırıldaqları və bu kimi əməllərə görə saxlanılan Tsarukyanın işini siyasi müstəviyə yönəltməyə çalışırlar. Məsələn, revanşist düşərgənin tanınan simalarından olan Tiqran Abramyan Qaqik Tsarukyana və onun əmlakına qarşı aparılan hərəkətləri qisas adlandırıb. O, bu cinayət işini parlament seçkiləri ilə əlaqələndirməyə çalışıb.

Paralel olaraq Robert Köçəryanın başçılıq etdiyi "Ermənistan" Bloku da Tsarukyanın saxlanılmasını eyni tezis üzrə "dəyərləndirib" - onlar da həbsi "siyasi qisas" adlandırıblar. Onlar Tsarukyanın saxlanılmasını hakimiyyətin legitimlik böhranını gizlətməyə və dövlət əleyhinə məqsədlərə çatmaq üçün bütün mümkün müqavimət mənbələrini aradan qaldırmağa çalışmaq kimi qələmə veriblər.

**Küçə döyüşlərinə çağırışlar edilir**

Tsarukyanın başqa bir "müdafiəçisi" "Güclü Ermənistan" partiyası da həbs edilən partiya sədrinə qarşı irəli sürülən fırıldaqçılıq və dələduzluq maddələrini ikinci plana keçirmək üçün "hərəkətə keçib". Partiyanın rəhbərlərindən olan Narek Karapetyanın sözlərinə görə, Nikol Paşinyanın rəhbərlik etdiyi Ermənistandakı hazırkı hökumət ölkə vətəndaşlarının əksəriyyətinin dəstəyini almayıb. Karapetyan Tsarukyanın həbsindən istifadə edərək revanşist bloku birləşməyə çağırıb, başqa sözlə hakimiyyətə qarşı qeyri-qanuni fəaliyyətə başlanılmasının vaxtının çatdığını təbliğ edib.

**Kilsə fürsəti əldən vermək istəmir**

Yaranan siyasi gərginlikdən istifadə etməyə çalışan kilsə də Nikol Paşinyana qarşı yenidən cəbhə açmaq qərarındadır. Bir müddət öncə küçə aksiyaları həyata keçirən arxiyepiskop Baqrat Qalstanyan Ermənistanın Baş naziri Nikol Paşinyana qarşı iddia qaldıraraq, iddiaçının böhtan xarakterli hesab etdiyi səslərin satın alınması iddialarının geri götürülməsini tələb edib. Bundan əlavə, arxiyepiskop baş nazirdən mənəvi ziyana görə 49,7 dram təzminat tələb edir. İddia ərizəsi 6 iyul 2026-cı ildə verilib və hakim Marine Taşçyan tərəfindən imzalanıb.

İddia ərizəsində arxiyepiskop Nikol Paşinyanın məhkəmə qərarından sonra beş iş günü ərzində şərəfinə, ləyaqətinə və işgüzar nüfuzuna xələl gətirən yalan məlumatları ictimaiyyət qarşısında təkzib etməyə məcbur edilməsini xahiş edir. Təkzib Ermənistan hökumətinin rəsmi saytında, baş nazirin rəsmi saytında və ən azı 5000 nüsxə tirajla çap olunmuş mətbuat orqanında dərc olun-



malıdır.

**Samvel Karapetyanın "deputatlarından" biri siyahıdan çıxdı...**

Bütün bunlarla yanaşı revanşist müxalifətin siyahısı ilə parlamentə düşən bəzi şəxslər artıq öz partiyalarından istefa verirlər. Vəkil Vahan Ovannisyan özünü "Güclü Ermənistan" bloku siyahısından çıxarmaq üçün Ermənistan Mərkəzi Seçki Komissiyasına ərizə təqdim etdiyini açıqlayıb: "Mərkəzi Seçki Komissiyasına "Güclü Ermənistan" partiya alyansının seçki siyahısından çıxarılmağım üçün ərizə təqdim etdim. Bundan sonra Ermənistanda təcili ehtiyac duyulan insan haqları ilə məşğul olmağa davam edəcəyəm", - deyə vəkil Facebook səhifəsində bildirib.

*P.İSMAYILOV*

# Hər köç yeni bir başlanğıcdır!







## Böyük Qayıdış Zəfərin izlərini həyata çevirir...

Bir zamanlar həsrətin, ayrılığın və məcburi köçkünlük ağrısının simvoluna çevrilən işğaldan azad edilmiş ərazilərimizin yolları artıq sevinc, qürur və doğma torpaqlara qayıdışın ünvanına çevrilib. Demək olar ki, hər gün yola salınan köç karvanları illərlə öz doğma yurduna dönəcəyi günü səbrlə gözləyən ailələrin həyatında yeni bir səhifə açır, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyatın yenidən canlandığını bütün dünyaya nümayiş etdirir.

Hər yeni köç karvanı sadəcə insanların bir yaşayış məntəqəsindən digərinə köçürülməsi deyil, eyni zamanda dağıdılmış şəhər və kəndlərin yenidən nəfəs almasının, uzun illər susqun qalan küçələrin uşaq səsləri ilə dolmasının, boş qalan evlərin yenidən işıqlanmasının canlı nümunəsidir. Demək olar hər gün yola salınan köç karvanları göstərir ki, Böyük Qayıdış prosesi ardıcıl şəkildə davam edir. Azad edilmiş torpaqlarda həyatın bərpası sürətlə genişlənir, çünki hər qayıdan ailə özü ilə birlikdə yalnız şəxsi əşyalarını deyil, həm də doğma yurda olan sevgisini, gələcəyə inamını, zəhmətini və yeni həyat qurmaq əzmini aparır.

**41 ailə yola salındı**

İyulun 6-da Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köç karvanı yola salınıb. Şükürbəyli kəndində 223 nəfərdən ibarət 46 ailəyə mənzillərin açarları təqdim edilib. Ötən gün isə Xocavəndə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Xocavənd şəhərinə 41 ailə olmaqla, 163 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Yeni köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub. Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda, döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

**Quruculuq işləri yalnız binaların tikintisi ilə məhdudlaşmır**

İllərlə işğalın ağır izlərini daşıyan Xocavənd rayonu bu gün tamamilə fərqli bir dövrünü yaşayır. Burada həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri nəticəsində dağıntılar tədricən inkişafla əvəz olunur, müasir infrastruktur yaradılır, yeni yaşayış məntəqələri formalaşdırılır. Doğma torpaqlarına qayıdan insanların rahat, təhlükəsiz və firavan həyat sürməsi üçün hərtərəfli şərait qurulur. Rayon ərazisində avtomobil yollarının yenidən inşa edilməsi, elektrik, içməli su, qaz və rabitə xətlərinin müasir tələblərə uyğun şəkildə çəkilməsi, sosial və kommunal infrastrukturun qurulması, eləcə də yaşayış məntəqələrinin bərpası Xocavəndin iqtisadi və sosial inkişafına yeni təkan verməklə yanaşı, bu torpaqlarda həyatın davamlı şəkildə bərpa olunduğunu da nümayiş etdirir.

Xocavənddə həyata keçirilən quruculuq işləri yalnız binaların və yolların tikintisi ilə məhdudlaşmır. Eyni zamanda gələcək nəsillərin keyfiyyətli təhsil alacağı məktəblərin, müasir tibbi xidmət göstərəcək səhiyyə müəssisələrinin, mədəniyyət və ictimai xidmət obyektlərinin yaradılması istiqamətində görülən işlər bölgənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsini təşkil edir.

Bu gün rayonda aparılan hər bir tikinti işi, salınan hər yeni yol, çəkilən hər yeni kommunikasiya xətti və yaradılan hər yeni yaşayış məkanı illərdir doğma yurd həsrəti ilə yaşayan insanların öz torpaqlarına inamla qayıtmasına xidmət edir. Çünki Böyük Qayıdış prosesi təkcə insanların evlərinə dönməsi deyil, həm də şəhər və kəndlərin əvvəlkindən daha müasir, daha dayanıqlı və daha inkişaf etmiş şəkildə yenidən qurulması deməkdir.

Xocavənddə davam edən bərpa və yenidənqurma işləri göstərir ki, bu qədim Azərbaycan torpağında həyat yenidən öz axarına qayıdır, əmək, quruculuq və inkişaf ruhu hər keçən gün daha da güclənir. Burada atılan hər addım gələcək nəsillərin firavan yaşayacağı, insanların rahatlıq və əmin-amanlıq içində həyat sürəcəyi güclü və davamlı bir gələcəyin formalaşmasına xidmət edir.

*Yeganə BAYRAMOVA*

# Sülh danışıqlarının 6-cı mərhələsi...

## İsrail və Livan nümayəndələri Romada səfirlər səviyyəsində görüşəcəklər

Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi və dəstəyi nəticəsində iyulun 26-da Livan və İsrail hökumətləri arasında çərçivə sazişinin imzalanması tərəflər arasında gərginliyi azaltmayıb. Belə ki, İsrail hələ də Livanda bəzi hərbi hədəflərə hücumlarını davam etdirir.

İsrail və Livan arasında razılaşmaya dair çərçivə sazişi İsrail qoşunlarının respublika ərazisindən tədricən çıxarılmasını nəzərdə tutur. Sənəd münaqişəyə son qoyulmasını, Livanın bütün ərazisi üzərində tam suveren nəzarətinin bərpasını, eləcə də qeyri-dövlət silahlı qruplarının tərksilah edilməsini və onlarla əlaqəli infrastrukturun ləğvini nəzərdə tutur. Bu şərtlər yerinə yetirildikdən sonra İsrail qüvvələri mərhələli şəkildə ölkədən çıxmalıdır. Təhlükəsizlik tədbirləri və nəzarət mexanizmləri də daxil olmaqla, prosesin təfərrüatları ABŞ-ın dəstəyi ilə hazırlanmış ayrıca bir əlavədə göstəriləcək. Saziş, həmçinin hazırda İsrail qüvvələrinin əlində olan iki ərazinin nəzarətinin Livan hakimiyyətinə verilməsini nəzərdə tutur. Onların dəqiq yeri açıqlanmır. Sənəddə vurğulanır ki, "Hizbullah" da daxil olmaqla silahlı qrupların yaratdığı təhlükənin aradan qaldırılması gələcəkdə İsrail Müdafiə Qüvvələrinin Livandakı mövcudluğunu aradan qaldırmağa imkan verəcək.

### Çərçivə sazişi yekun razılaşma deyil



Livanın xarici işlər naziri Yusif Raci isə İsraillə əldə olunmuş çərçivə sazişinin yekun razılaşma olmadığını, yalnız münaqişənin həlli istiqamətində danışıqların davam etdirilməsi üçün əsas yaratdığını bildirib. Bu barədə "Əl-Cəzirə" telekanalı məlumat yayıb. Nazirin sözlərinə görə, İsraillə imzalanmış çərçivə sazişi yekun sənəd deyil, gələcək danışıqların aparılması və prosesin tamamlanması üçün baza rolunu oynayır. Yusif Raci qeyd edib ki, Livan mövcud şəraitdə danışıqlara başlamağa məcbur olub. O bildirib ki, hökumət ölkədə sabitlik və rifahın yeni mərhələsini başlatmaq niyyətindədir.

Nazir, həmçinin vurğulayıb ki, silahlı qüvvələrin və silahların yalnız dövlətin nəzarətində olması təkcə xarici tərəflərin tələbi deyil, həm də Livanın güclü, normal və suveren dövlət kimi inkişafı üçün zəruri şərtdir.

İsrailin ABŞ-dakı səfiri Yexiel Lyayter isə deyib ki, İsrail-Livan danışıqlarının altıncı mərhələsi iyulun 15-16-da Romada səfirlər səviyyəsində keçiriləcək. Diplomatın sözlərinə görə, iyulun 21-də ABŞ Prezidenti Donald Tramp Livan Prezidenti Cozef Aunla görüşəcək. Bu görüş İsrailin Baş naziri Benyamin Netanyahu və Tramp arasında planlaşdırılan görüşdən sonra baş tutmalıdır. Aun ilə Netanyahu arasında görüşün keçirilməsi isə planlaşdırılmır. Daha əvvəl C.Aun ABŞ administrasiyasını İsrail qoşunlarının Livan ərazisindən çıxarılmasını sürətləndirmək üçün Təl-Əvivə təzyiq göstərməyə çağırmışdı. Aunun sözlərinə görə, İsrail qoşunlarının davam edən mövcudluğu Livanın suverenliyini sarsıdır, milli ordunun cənub sərhədində yerləşdirilməsinə mane olur və Vaşinqtonda imzalanmış çərçivə sazişinin icrasını təhlükə altına qoyur. Livan Prezidenti vurğulayıb ki, İsrail qüvvələrinin çıxarılması sülh və sabitliyə nail olmaq üçün əsas şərtdir. O, həmçinin xəbərdarlıq edib ki, İsrailin hərbi mövcudluğunun qorunub saxlanması ABŞ və Livanın can atdığı məqsədlərin həyata keçirilməsinə kömək etməyəcək.

### Livan hərbçilərini İsral sərhədində yerləşdirmək niyyətindədir

Bundan əlavə, ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri admiral Bred Kuperi Beyrutda qəbul edən Livan Prezidenti Cozef Aun bildirib ki, Livan öz hərbi qulluqçularını İsraillə sərhəddə yerləşdirmək niyyətində qətidir: "Livan ordusu beynəlxalq səviyyədə tanınmış sərhədlərinin bütün uzunluğu boyu yerləşdiriləcək və İsrail buna mane olmamalıdır".

Görüş zamanı Aun Livan-İsrail danışıqlarının yekunlarına əsasən iyunun 26-da Vaşinqtonda imzalanmış çərçivə sazişinin uğurla həyata keçirilməsinin vacibliyini vurğulayıb. Xatırladaq ki, CENTCOM komandanı Livan ordusu bölmələrinin ölkənin cənubundakı "pilot zona"larda yerləşdirilməsinə yardım edəcək bir qrup hərbi müşahidəçi ilə birlikdə Təl-Əvivdən Beyruta gəlib. Razılaşmaya əsasən, İsrail hərbçiləri Litani çayının şimalındakı bir neçə ərazini tərk edəcəklər, daha sonra isə bu əraziləri Livan Silahlı Qüvvələrinin nəzarətinə keçəcək.



### Tehranın mövqeyi dəyişməyəcək

Bu arada Livan parlamentinin sədri Nəbih Berri İrana səfər edib. Onunla görüş zamanı İranın xarici işlər naziri Abbas Əraqçi deyib ki, İsrailin Livana hücumları ilə bağlı Tehranın mövqeyi dəyişməyəcək. A. Əraqçi Livan xalqının İsrailin hücumları və davamlı təhdidləri qarşısında dözümlülüyünü yüksək qiymətləndirib. N. Berri isə Livanın ərazi bütövlüyü və milli suverenliyini dəstəkləməkdə nümayiş etdirdiyi prinsipial mövqeyinə görə İrana minnətdarlığını bildirib.

Rəsmi Tehran hesab edir ki, İsrail ordusunu Livanın bütün bölgələrində əməliyyatları dayandırmağa məcbur etmək üçün ABŞ tərəfindən bütün zəruri tədbirlərin görülməsi vacibdir. İran İsrail ordusunun Livandan geri çəkilmə qrafikinin daha sürətli müəyyənləşdirilməsini tələb edir.

*N.BAYRAMLI*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Yayın əvəzolunmaz dadı!

## Dondurma sevənlərin günüdür...

İsti yay günlərinin əvəzolunmaz ləzzəti, uşaqlıq xatirələrinin ayrılmaz hissəsi və dünyanın demək olar ki, bütün ölkələrində sevilərək istehlak edilən qida məhsullarından biri olan dondurma təkcə şirin bir desert deyil, eyni zamanda müxtəlif xalqların mətbəx mədəniyyətini, qida sənayesinin inkişafını və insanların həyat tərzini özündə əks etdirən xüsusi bir simvoldur. Məhz bu səbəbdən hər il 8 iyul tarixində qeyd olunan Beynəlxalq Dondurma Günü milyonlarla insan üçün sevincli və rəngarəng bir bayrama çevrilir.

Beynəlxalq Dondurma Günü insanlara sadəcə sevimli desertlərini dadmaq üçün deyil, həm də qida sənayesində baş verən yenilikləri, müxtəlif ölkələrin kulinariya ənənələrini və fərqli mədəniyyətlərin ortaq zövqünü tanımaq üçün gözəl fürsət yaradır. Çünki dünyanın harasında yaşamasından asılı olmayaraq, insanlar bir top dondurmanın yaratdığı xoş hissləri, uşaqlıq xatirələrini və paylaşma sevincini eyni səmimiyyətlə yaşayırlar.

**Dondurmanın yaranma tarixi**

Araşdırmalar nəticəsində belə qənaətə gəlinib ki, dondurma 17-ci əsrdə Fransada yaranıb. Ancaq bir rəvayət də var ki, 13-cü əsrdə Roma imperatoru qarları meyvə şirəsi ilə şirinləşdirmək üçün dağlara meyvə suları göndərib. Bəzi iddialara görə, onun hazırlama ideyası 1903-cü ildə bir italiyan tərəfindən icad edilmiş və patentləşdirilib. Amma 1904-cü ildə St. Louis World Fair, suriyalı vafli satıcısı dondurma satıcısına kömək etmək üçün xəmiri konus halına gətirdi və bunu populyarlaşdırdı. Beynəlxalq Süd Yemələri Dərnəyinə görə, bu gün orta hesabla bir amerikalı ildə təxminən 20 litr dondurma yeyir.

Zaman keçdikcə bu sadə reseptlər inkişaf edərək bugünkü qaymaqlı, meyvəli, şokoladlı, vanilli və yüzlərlə fərqli çeşiddə təqdim olunan müasir dondurmaların yaranmasına səbəb olub. Bu da qida texnologiyalarının nə qədər böyük yol keçdiyini göstərən maraqlı nümunələrdən biridir. Ən çox satılan növləri bazarın 33 faizini təşkil edən vanilli və 19 faizini təşkil edən şokoladlı növləridir. İyun, iyul və avqust dondurmanın ən çox istehsal və istehlak olunduğu aylardır.

**Dondurma istehlak edən əsas ölkələr**

Hazırda dünyada ən çox dondurma istehlak edən ölkələr sırasında ABŞ ön sıralarda yer alır. Burada hər il milyardlarla porsiya dondurma satılır, çünki amerikalılar üçün bu məhsul sadəcə yay aylarının deyil, ilin bütün fəsillərinin sevilən deserti hesab olunur. Böyük supermarketlərdən kiçik ailə kafelərinə qədər hər yerdə yüzlərlə fərqli dad seçimi təqdim edilir və yeni reseptlərin hazırlanması istiqamətində davamlı yeniliklər həyata keçirilir.

ABŞ dondurma istehsalına görə də dünyanın ən böyük istehsalçılarından biri hesab olunur. Ölkədə fəaliyyət göstərən iri qida müəssisələri hər il milyonlarla ton dondurma istehsal edərək həm daxili bazarın tələbatını ödəyir, həm də məhsullarını dünyanın müxtəlif ölkələrinə ixrac edir. Bununla yanaşı İtaliya, Çin, Almaniya və Fransa kimi ölkələr də həm istehsal həcmi, həm də özünəməxsus reseptləri ilə qlobal dondurma sənayesində mühüm yer tutur. Xüsusilə, İtaliya özünün məşhur “gelato” ənənəsi ilə dünyada seçilir və bu ölkədə hazırlanmış dondurmalar daha az hava tərkibinə, daha sıx quruluşa və təbii inqrediyentlərdən istifadə olunmasına görə fərqləndiyindən milyonlarla turist hər il məhz orijinal italyan “gelato”sunun dadına baxmaq üçün bu ölkəyə səfər edir.

Ölkəmizdə də dondurma yay mövsümünün ən çox sevilən məhsullarından biri hesab olunur. Son illər yerli istehsal müəssisələrinin fəaliyyətinin genişlənməsi nəticəsində bazarda həm klassik, həm də milli dad elementləri ilə zənginləşdirilmiş yeni çeşidlər təqdim edilir. İstehlakçılar isə yerli məhsullarla yanaşı dünyanın müxtəlif ölkələrinin məşhur dondurma markalarını da rahatlıqla əldə edə bilirlər.

**Dondurmanın xeyirləri nədir?**

Sağlam qidalanaraq xəstəliklərdən qorunmağımızda çox əhəmiyyətli rol oynayan immun sistemimizi daim dəstəkləməliyik. A vitamini və zülal tərkibi sayəsində dondurma immunitet sisteminin işinə kömək edir və dişləri gücləndirir. Belə ki, dondurmanın tərkibində olan fosfat dişlərin, diş əti və sümüklərin sağlamlığını qoruyur.

Ancaq karies meydana gəlməsinin qarşısını almaq üçün yedikdən sonra dişlərin mütləq şəkildə fırçalanması çox vacibdir. Süd, meyvə və şokoladlı dondurmalar kaliumla zəngindir. Kalium ürək sağlamlığı üçün çox vacib bir mineraldır.

Bundan əlavə, kalium bədənin elektrolit balansında mühüm rol oynayır. Əzələləri qoruyur, içindəki maqnezium sayəsində bədəndəki turşu-əsas balansını tənzimləməyə kömək edir. Əzələ və sinir sistemi üçün kalsium əvəzolunmazdır.

O, əzələlərin yığılmasına, maqnezium isə rahatlamağa kömək edir ki, bu xüsusiyyətə görə bağırsaqların işləməsi üçün də çox əhəmiyyətlidir. Bütün bunlara əlavə olaraq, maqnezium qan təzyiqini tənzimləmək kimi 300-dən çox metabolik reaksiyada iştirak edir və damar elastikliyini təmin edir.

Xüsusilə, şokoladlı dondurma yüksək maqnezium ehtiva edir və 2 qaşıq dondurma ilə gündəlik maqnezium ehtiyacınızın 10-15 faizini ödəyə bilərsiniz. Vitamin B2 olaraq da bilinən riboflavin tərkibi ilə dondurma bədənimizdə enerji istehsalını dəstəkləyir. Riboflavin selikli qişanı qorumaq və dərinin bərpasına kömək etmək kimi xüsusiyyətlərə də malikdir.

**Zərərləri hansıdır?**

Dondurmanın faydaları ilə yanaşı orqanizmə zərərli təsirləri də məlumdur. Belə ki, yay ayları çox isti olduğu üçün dondurmanın yeyilməsi qəlfətən ağız boşluğu, ösnək, udlaq və qırtlağın soyumasına səbəb olur ki, bu da qısa zaman kəsiyində yuxarı tənəffüs yollarının itihabi xəstəliklərinin inkişaf etməsinə gətirib çıxarır.



Bildiyimiz kimi, dondurmaların hazırlanmasında çiy yumurtadan istifadə olunduğuna görə bağısaq infeksiyaları, qida toksikoinfeksiyaları və digər qida zəhərlənmələri qaçınılmazdır.

*Yeganə BAYRAMOVA*

*İdman*



## Voleybol Federasiyasının yeni loqosu təqdim olunub

Azərbaycan Voleybol Federasiyasının (AVF) yeni loqosunun təqdimat mərasimi keçirilib. Tədbirdə bildirilib ki, yenilənmiş loqotip müasirliyi, dinamikanı və Azərbaycan voleybolunun inkişafını simvolizə edir. Yeni vizual kimlik sadə, yaddaqalan və beynəlxalq səviyyədə asan tanınan korporativ üslub yaratmaq məqsədilə hazırlanıb. Loqotipin mərkəzində voleybol topu yer alır. Yuxarı istiqamətə yönəlmiş dinamik xətlər isə inkişafı, yüksəlişi, qələbə əzmini və idmanın enerjisini ifadə edir. Loqotipdə istifadə olunan mavi, qırmızı və yaşıl rənglər Azərbaycan Bayrağının rənglərini əks etdirərək etibarlılıq, inkişaf, həyat və harmoniyanı simvolizə edir.

Loqotipdəki üçrəngli axıcı xətlər hərəkəti, sürəti, komanda ruhunu, voleybol topunun trayektoriyasını, federasiyanın davamlı inkişaf yolunu və ölkənin müxtəlif bölgələrindən olan idmançıların vahid məqsəd ətrafında birləşməsini ifadə edir.

Yeni AVF loqosu Azərbaycanın milli kimliyini, voleybolun dinamikasını və federasiyanın gələcəyə yönəlmiş strategiyasını vahid vizual obrazda birləşdirir. Bununla yanaşı, federasiyanın yenilənmiş rəsmi internet saytı da istifadəyə verilib.

## Portuqaliya millisinin baş məşqçisi istefa verib



Portuqaliya millisinin baş məşqçisi Roberto Martines vəzifəsindən istefa verib. Mütəxəssis bu barədə dünya çempionatının 1/8 final mərhələsində İspaniya yığmasına 0:1 hesabı ilə uduzduqları oyundan sonra keçirilən mətbuat konfransında deyib. İspaniyalı çalışdırıcı bu matçın Portuqaliya millisinin sükanı arxasında son oyunu olduğunu bildirib. Qeyd edək ki, Portuqaliya yığması Roberto Martinesin rəhbərliyi altında 32 qələbə, 6 heç-heçə və 7 məğlubiyyətlə yadda qalıb.

## “Kəpəz” braziliyalı hücumçu ilə yollarını ayırıb



“Kəpəz” futbolçusu Luis Paçu ilə yollarını ayırıb. Klubdan verilən məlumata görə, braziliyalı hücumçu ilə müqavilə qarşılıqlı razılıq əsasında ləğv edilib. Qeyd edək ki, Luis Paçu ötən mövsüm “Kəpəz”in heyətində 29 oyun keçirib. 30 yaşlı hücumçu bu matçlarda 5 qol vurub.

## Kamilo Duran “Qarabağ”ı tərk edir



“Qarabağ”ın futbolçusu Kamilo Duran Şotlandiyanın “Seltik” klubu ilə anlaşıb. AZƏRTAC Şotlandiya mətbuatına istinadən xəbər verir ki, kolumbiyalı hücumameyilli yarımmüdafiəçi Qlazqo təmsilçisi ilə şəxsi müqaviləsinin bütün detalları razılaşdırıb. İddiaya görə, “Seltik” bu keçid üçün “Qarabağ”a 3 milyon avro təzminat ödəyəcək. Qeyd edək ki, “Qarabağ” Kamilo Duranı ötən ilin yayında Portuqaliyanın “Portimonense” klubundan 200 min avroya transfer etmişdi. 25 yaşlı vinger ötən mövsüm UEFA Çempionlar Liqasında 5 qol vurub.

## “Lokomotiv”in yetirməsi “Sabah”da



“Sabah” heyətini yeni futbolçu ilə gücləndirib. “Bayquşlar” Amin Ramazanovu transfer edib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 23 yaşlı qapıçı ilə 2 illik müqavilə bağlanıb. Qeyd edək ki, Rusiyanın “Lokomotiv” (Moskva) klubunun yetirməsi olan Amin karyerası ərzində “Qarabağ” və “Zaqatala” klublarında çıxış edib.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4340
Sifariş: 873
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova